RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 80 (9535) 21 aprel 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Zəfərdən Zəfərə



## İlham Əliyev Qazaxın 4 kəndinin işğaldan azad olunmasını təmin etdi

Qarabağda erməni separatizminə son qoyulması ilə Prezident İlham Əliyev bütün torpaqlarımız üzərində milli suverenliyimizi bərpa etdi. Bu hadisə bir daha göstərdi ki, dövlətimizin başçısı böyük siyasi uzaqgörənliklə Azərbaycanın milli maraqlarını təmin edən güclü və qətiyyətli liderdir.

Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı Qazaxın kəndləridir və Ermənistan tərəfindən 1990-cı illərin əvvəllərində işğal ediliblər. Bağanıs Ayrım işğal olunmuş və yandırılmış ilk kənd kimi Azərbaycan tarixinə daxil olub. Bu kənd 1990-cı il martın 23-dən 24-nə keçən gecə erməni silahlı quldurları tərəfindən işğal edilib.

Azərbaycan Ermənistanın işğal altında olan 8 kəndinin qaytarılması məsələsini illər öncədən qaldırıb. Prezident İlham Əliyev bu ilin yanvar ayında yerli televiziya kanallarına müsahibəsində bununla bağlı bildirmişdi ki, işğal altında qalan səkkiz kəndin məsələsi daim gündəlikdədir: "Bu məsələ həm mənim Ermənistanın baş naziri ilə təmaslar əsnasında müzakirə edilir, o cümlədən Sankt-Peterburqda ayaqüstü son söhbət zamanı mən bu məsələni qaldırmışdım və eyni zamanda delimitasiya ilə bağlı komissiyaların gündəliyində də bu məsələ dayanır".

→ 5

## Türkiyə XİN Azərbaycan-Ermənistan dövlət sərhədi ilə bağlı əldə edilən razılaşma barədə bəyanat yayıb

**Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası tərəfindən əldə edilən razılaşma ilə bağlı Türkiyənin Xarici İşlər Nazirliyi (XİN) bəyanat yayıb.**



AZƏRTAC xəbər verir ki, Türkiyə XİN bəyanatında Azərbaycan-Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının aprelin 19-da keçirilən görüşündə 30 il işğal altında olan dörd kəndin Azərbaycana verilməsi və delimitasiya fəaliyyətlərinin davamı ilə bağlı əldə edilən razılaşmanı məmnuniyyətlə qarşıladığını bildirib.

Nazirlik birbaşa danışıqlar yolu ilə əldə edilən bu müsbət inkişafın yekun sülh sazişinin imzalanması istiqamətində mühüm addım olduğunu vurğulayıb.

## Blinken Qazaxın 4 kəndinin Azərbaycana qaytarılması barədə razılaşmanı alqışladığını bildirib



**Biz Ermənistan və Azərbaycanın iki ölkə arasında sərhədlərin delimitasiyası üçün 1991-ci il Alma-Ata Bəyannaməsini əsas tutaraq razılaşdıqları barədə açıqlamalarını alqışlayırıq.**

AZƏRTAC xəbər verir ki, bu barədə ABŞ-nin Dövlət katibi Entoni Blinken "X" sosial şəbəkə hesabında bildirib.

"Bu, dayanıqlı və ləyaqətli sülh sazişinin bağlanması yolunda mühüm addımdır", - deyə o qeyd edib.

Qeyd edək ki, ötən gün Azərbaycan və Ermənistan arasında sərhəddə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü keçirilib. Görüş zamanı Qazaxın Ermənistan tərəfindən işğal olunan 4 kəndinin Azərbaycana qaytarılması barədə razılıq əldə edilib.

## Bir güllə atılmadan...

### Müzəffər Ali Baş Komandan Qazaxın 4 kəndini də öz sahiblərinə qaytarır

Qarabağda separatizmin məhv edilməsi ilə Rusiya sülhməramlılarının fəaliyyətinə də bölgədə ehtiyac qalmadı. Bu, rəsmi şəkildə də təsdiqini tapdı və vaxtından əvvəl Rusiya sülhməramlı kontingenti Azərbaycan ərazilərini tərk etməyə başladı.

Xüsusi vurğulayaq ki, bu məsələdə Prezident İlham Əliyevin şəxsi səyləri var. Belə ki, 10 noyabr Bəyanatında sülhməramlıların 2025-ci ilə qədər müvəqqəti olaraq yerləşdirilməsi maddəsinin əksini tapmasını məhz Prezident İlham Əliyev israr etmişdi və dövlətimizin başçısının qətiyyətli siyasətinin nəticəsində bu proses də öz məntiqi sonluğuna çatdırılmışdı.

Prezident İlham Əliyevin yürütdüyü diplomatik, məharətli siyasətin növbəti addımı isə Qazax rayonunun 4 kəndinin Azərbaycana qaytarılmasıdır. 4 qeyri-anklav kəndin bir güllə atılmadan, qan tökülmədən azad edilməsi Azərbaycanın və Prezident İlham Əliyevin növbəti qələbəsidir.

→ 6

## Münaqişə bitdiyinə görə sülhməramlılara ehtiyac yoxdur

Sülhməramlıların bu əraziləri tərk etməsi bir daha sübut edir ki, Qarabağ münaqişəsi tamamilə bitib. Rusiya sülhməramlıları postsovet dövlətinin ərazisini könüllü tərk edirlər. Ağdamda fəaliyyət göstərən Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də fəaliyyətini dayandırıb. Bununla bağlı Türkiyə Milli Müdafiə Nazirliyi bəyanat yayıb. Bu gün Qarabağ ərazisində hərbi əməliyyatlar mövcud olmadığı üçün mərkəzin də fəaliyyətinə ehtiyac yoxdur.

Rusiya hərbçilərinin vaxtından əvvəl getməsi Moskva və Bakının ən yüksək səviyyədə siyasi razılığa gəldiyini bir daha göstərir. Bu, artıq öz təsdiqini tapıb.

→ 7

## Kökü ilə torpağa bağlı olan təbiət abidələrimiz



"Yaşıl tarix"imiz və ekoloji mədəniyyətimiz sayılan bu abidələri qorumaq vətəndaşlıq borcumuzdur

→ 8

## Fransanı daha böyük iflas gözləyir



Görünən odur ki, rəsmi Parisin xarici siyasət strategiyası bir çox hallarda dünyada və regionda baş verən proseslərin yaratdığı reallıqları nəzərə almır. Paris bilməlidir ki, Azərbaycan tamamilə müstəqil siyasət yürüdür, başqa ölkələrin diktəsi ilə oturub-durmur. Azərbaycanın qəbul etdiyi qərarlar yalnız rəsmi Parisin qərəzli siyasi bəyanatlarına və qərarlarına cavab mahiyyətində olub. Fransa nəzərə almalıdır ki, Azərbaycanın xarici siyasətinin ən vacib prinsipi münasibətlərin qarşılıqlı hörmət, bir-birinin fundamental xarakterli maraqlarını nəzərə almaq şərtilə qurulmasıdır. Təəssüf ki, Fransa tamamilə fərqli yanaşma nümayiş etdirir. Reallıq odur ki, Fransanın xarici siyasəti Avropa dəyərlərinə hörməti və dövlətlərin daxili işinə qarışmamağı özündə ehtiva etməlidir. Parisin Azərbaycana qarşı qərəzli addımları heç bir nəticə vermir, verməyəcək də. Əksinə, mövcud siyasi vəziyyət Azərbaycanın xeyrinə formalaşır. Bunları nəzərə almasa, riyakarlıqlar burulğanında çabalayan Makronu və Fransanı daha böyük iflas gözləyir.

→ 7

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 214 **QƏRAR** Bakı şəhəri, 19 aprel 2024-cü il

## Azərbaycan Texniki Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Texniki Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Texniki Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Azərbaycan Texniki Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərar qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Texniki Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 215 **QƏRAR** Bakı şəhəri, 19 aprel 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 28 avqust tarixli 136 nömrəli və "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adlarının təsdiq edilməsi barədə" 2008-ci il 19 dekabr tarixli 277 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 14.1.2-ci, 14.1.3-cü və 14.1.5-ci yarımbəndləri ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli, 1 aprel tarixli 184 nömrəli və 3 aprel tarixli 196 nömrəli qərarları) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Dövlət Məşğulluq Xidmətinin Aparatı;", "Dövlət Sosial Təminat Xidmətinin Aparatı;" və "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Aparatı;" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 217 **QƏRAR** Bakı şəhəri, 19 aprel 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli və 3 aprel tarixli 195 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 3-cü hissəsinin əlli ikinci abzasından "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 216 **QƏRAR** Bakı şəhəri, 19 aprel 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın təsdiq edilməsi haqqında" 2008-ci il 27 sentyabr tarixli 234 nömrəli, "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın təsdiq edilməsi barədə" 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli və "Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 12 fevral tarixli 47 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 sentyabr tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 880 (Cild I) ilə təsdiq edilmiş "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. yeddinci abzas aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin inzibati binası;";

1.2. səkkizinci-on beşinci abzaslar onuncu-on yeddinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda səkkizinci, doqquzuncu abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin inzibati binası;

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin inzibati binası;".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 fevral tarixli 85 nömrəli və 12 mart tarixli 137 nömrəli qərarları) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na 2 nömrəli Əlavə - "Azərbaycan Respublikasının müvafiq dövlət orqanları tərəfindən verilmiş icazə sənədləri təqdim edilməklə sadələşdirilmiş qaydada gömrük sərhədindən keçirilən və beynəlxalq poçt göndərişləri vasitəsilə alınan (göndərilən) mallar"ın 2-ci hissəsində "Xüsusi Dövlət Mühafizə" sözləri "Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 fevral tarixli 47 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 345 (Cild I) ilə təsdiq edilmiş "Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə "Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Feldyeger Rabitəsi Baş İdarəsi" sözləri ilə əvəz edilsin;

3.2. 1.4-cü, 3.2-ci bəndlərdə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

3.3. 10.5-ci bəndin birinci cümləsində "9.4-cü" sözləri "10.4-cü" sözləri ilə, 11.3-cü bənddə isə "2-ci" sözləri "3-cü" sözləri ilə əvəz edilsin;

3.4. həmin Qaydanın 1 nömrəli (hər üç halda), 2 nömrəli, 3 nömrəli və 5 nömrəli əlavələrində ismin müvafiq hallarında "Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Feldyeger Rabitəsi Baş İdarəsi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 218 **QƏRAR** Bakı şəhəri, 19 aprel 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nda dəyişiklik edilməsi haqqında

"Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2432 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 13.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"13.1. Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan-Ermənistan şərti sərhədindəki mövcud əməliyyat şəraiti təhlil edilib

**Aprelin 20-də Quru Qoşunlarının qərargahında müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə müdafiə nazirinin müavini - Quru Qoşunlarının komandanı general-leytenant Hikmət Mirzəyev, Quru Qoşunlarının idarə və xidmət rəisləri, birlik, birləşmə komandirləri iştirak ediblər.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Müşavirədə Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti, hərbi hissələrin döyüş hazırlığı üzrə tədbirlər və hərbi intizamın vəziyyəti təhlil edilib.

Nazir hərbi hissələrin xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi, ayıq-sayıqlığın artırılması, eləcə də döyüş tapşırıqlarının dəqiq və vaxtında icrasına daim hazır olunması barədə müvafiq göstərişlər verib.

Çətin relyefli, yüksək dağlıq ərazilərdə döyüş növbətçiliyi aparan bölmələrin maddi-texniki və mühəndis təminatı, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

General-polkovnik Z.Həsənov Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası prosesinin effektiv həyata keçirilməsi və təhlükəsizliyin təmin edilməsi məqsədilə digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə zəruri tədbirlərin görülməsi barədə aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Müdafiə naziri Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilmiş, hazırda isə ölkəmizi tərk edən Rusiya sülhməramlı kontingentinin şəxsi heyət, silah-sursat və döyüş texnikasının daşınmasında lazımi texniki dəstəyin göstərilməsi ilə bağlı müvafiq göstərişlər verib.

Sonda icra edilən tədbirlərin daha keyfiyyətli yerinə yetirilməsinin diqqət mərkəzində saxlanılmasının əhəmiyyəti qeyd olunub.

# Qlobal Metan Azaldılması təşəbbüsü çərçivəsində SOCAR və BP şirkətlərinə səfərlər təşkil olunub



**Qlobal Metan Azaldılması təşəbbüsü çərçivəsində bir qrup yerli neft-qaz operatorlarının nümayəndələri üçün emissiyaların azaldılması sahəsində qabaqcıl təcrübələrin bölüşülməsi məqsədilə "Neft Daşları" NQÇİ-yə, Səngəçal terminalına sahə səfərləri təşkil edilib. SOCAR-dan AZƏRTAC-a bildirilib ki, "Neft Daşları"na səfər SOCAR-ın vitse-prezidenti Əfqan İsayevin, habelə Neft-Qaz İqlim Təşəbbüsünün (Oil and Gas Climate Initiative - OGCI) və BMT-nin Ətraf Mühit Proqramının (United Nations Environment Programme - UNEP) nümayəndələrinin iştirakı ilə həyata keçirilib.**

Səfər zamanı iştirakçılara neft-qaz əməliyyatları prosesində emissiyaların müasir cihazlar vasitəsilə monitorinqi, ölçülməsi, inventarlaşdırılması və azaldılması tədbirlərinin həyata keçirilməsinə dair SOCAR-ın qabaqcıl təcrübəsi haqqında ətraflı məlumatlar təqdim edilib.

İştirakçılar həmçinin "Neft Daşları"nda həyata keçirilən "Sızmaların Azaldılması və Təmiri Layihəsi"nin (Leak Detection and Repair - LDAR) icrası haqqında məlumatlandırılıblar. Regionda ilk dəfə olaraq 2016-2022-ci illər ərzində SOCAR tərəfindən reallaşdırılan və emissiyaların azaldılmasını, sertifikatlaşdırılmasını özündə əks etdirən layihənin icrası nəticəsində qazanılan uğurlu təcrübədən yararlanaraq, 2023-cü ildə "Neft Daşları"nda ikinci və daha genişmiqyaslı LDAR layihəsinin həyata keçirilməsinə başlanılıb. Layihənin əsas üstünlüyü atılmaların azaldılması ilə ətraf mühitin qorunmasına töhfə vermək, həmçinin azaldılmış emissiya həcmlərinin ticarəti ilə əlavə investisiyaların əldə edilməsidir. Səfər zamanı iştirakçıların layihəyə dair sualları cavablandırılıb və qarşılıqlı müzakirələr aparılıb.

Həmçinin BP şirkətinin əməliyyatçısı olduğu Səngəçal terminalına səfər təşkil edilib. Səfər zamanı BP-nin əməkdaşları tərəfindən iştirakçılar üçün təqdimatlar keçirilib, terminalda neft-qaz əməliyyatları prosesində emissiyaların azaldılmasına dair şirkətin təcrübəsi və metanın ölçülməsi üzrə tətbiq olunan yeni texnologiyalar haqqında ətraflı məlumatlar təqdim edilib.

"Azəri-Mərkəzi-Şərqi" platformasının məsafədən idarəetmə mərkəzi ilə tanış olan iştirakçılara innovativ avtomatlaşdırılmış mexanizmlərin tətbiqi ilə platformanın Səngəçal terminalından idarə olunduğu barədə məlumat verilib. Platforma "Azəri-Çıraq-Günəşli" platformaları arasında, həmçinin BP-nin tam quruda idarə olunan ilk platformasıdır.

Qeyd edək ki, SOCAR və BP şirkətləri Azərbaycanda qabaqcıl sənaye liderləri kimi Metan Rəhbər Prinsipləri ("Methane Guiding Principles" - MGP) çərçivəsində Qlobal Metan Azaldılması ("Advancing Global Methane Reduction" - AGMR) təşəbbüsünü icra edirlər.

Təşəbbüsün əsas məqsədi SOCAR və BP tərəfindən Azərbaycanda fəaliyyət göstərən neft-qaz operatorları üçün metan emissiyalarının ölçülməsi, hesabatlılığı və azaldılması fəaliyyətlərinin təşviq edilməsi, bu sahədə bilik və bacarıqların təkmilləşdirilməsi, habelə mövcud ən qabaqcıl texnologiyaların tətbiqini dəstəkləməkdən ibarətdir.

# Ceyhun Bayramov İranın Azərbaycandakı səfiri ilə görüşüb



**Aprelin 20-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər hazırkı dönəmdə iki dövlət arasında tarixi köklərə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərinin qarşılıqlı hörmət əsasında inkişafından məmnunluq ifadə ediblər. Hazırda siyasi, iqtisadi, ticarət və digər istiqamətlərdə münasibətlərin inkişafı üzrə əhəmiyyətli addımlar atıldığı vurğulanıb.

Nazir Ceyhun Bayramov eyni zamanda regional və çoxtərəfli çərçivələrdə iki ölkə arasında əlaqələrin inkişafının, 3+3 kimi regional formatların səmərəli fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Səfir Seyid Abbas Musəvi diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkür edib. Səfir kimi çalışdığı müddətdə ikitərəfli münasibətlərin inkişafı üçün bütün imkanların səfərbər edildiyini qeyd edib. Eyni zamanda ondan sonra gələcək səfirin də bu münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyindən əmin olduğunu vurğulayıb.

Görüşdə tərəflər arasında qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov səfir Seyid Abbas Musəviyə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Medianın İnkişafı Agentliyi Ermənistanın və bir sıra digər ölkələrin media resurslarında dərc olunan əsassız məlumatlarla bağlı açıqlama yayıb

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi Ermənistanın və bir sıra digər xarici ölkələrin media resurslarında dərc olunmuş əsassız məlumatlarla bağlı açıqlama yayıb.**

AZƏRTAC açıqlamanı təqdim edir: "Ermənistanın və bir sıra digər xarici ölkələrin media resurslarında Azərbaycan ərazisindən üçüncü dövlətə qarşı hərbi məqsədlərlə istifadə edilməsi haqqında mənbəyi məlum olmayan, habelə reallıqdan uzaq, əsassız məlumatlar yayılmaqdadır.

Medianın İnkişafı Agentliyi tərəfindən aparılan araşdırmalar nəticəsində sözügedən məlumatların dezinformasiya mahiyyəti daşıdığı və ölkəmizə qarşı sistemli dezinformasiya hücumlarının tərkib hissəsi olduğu müəyyənləşdirilib.




Medianın peşəkarlıq və beynəlxalq etik dəyərləri ilə ziddiyyət təşkil edən yalan məlumatların, dəqiqləşdirilməmiş rəylərin tirajlanmasını ölkəmizin beynəlxalq nüfuzuna kölgə salmağa hesablanmış növbəti uğursuz cəhd kimi qiymətləndiririk. Media subyektlərini və jurnalistləri qeyri-dəqiq, mənbəyi bilinməyən məlumatlardan istifadə etməməyə və ölkəmizə yönəlmiş dezinformasiya hücumlarının istənilən təzahürlərinə qarşı prinsipiallıq nümayiş etdirməyə çağırırıq".

# Azərbaycan iqtisadiyyatı üçün yeni mərhələ

## Xəzərdə yaradılacaq süni torpaq sahələri xarici investorları ölkəyə cəlb edəcək

**Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələri yaradılacaq. Bu, Milli Məclisdə müzakirəyə çıxarılan yeni qanun layihəsində də əksini tapıb.**



Süni torpaq sahəsi dedikdə Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan bölməsində torpağın və ya qruntun daşınıb tökülməsi, yaxud səpilməsi yolu ilə və ya başqa üsullardan istifadə olunmaqla yaradılan torpaq sahəsi başa düşülür.

Milli Məclisin deputatı Vüqar Bayramov yeni qanun layihəsi ilə bağlı qəzetimizə açıqlamasında bildirib ki, Xəzər dənizində süni torpaq sahələrinin yaradılması Azərbaycan üçün həm də iqtisadi baxımdan yeni bir imkandır.

Deputatın sözlərinə görə, süni torpaq sahələrinin yaradılmasında yalnız dövlət qurumları deyil, həmçinin fiziki və hüquqi şəxslər də iştirak edəcəklər. Bu isə ondan xəbər verir ki, bu layihə həm də sahibkarlara fəaliyyətlərini genişləndirmək üçün yeni fürsətlər yaradacaq.

V.Bayramov qeyd edib ki, sahibkarlar praktik olaraq bu prosesdə iştirak etməklə layihədən faydalana biləcəklər: "Məqsəd süni torpaq sahələri yaratmaqla investisiya qoyuluşlarının cəlb edilməsi, xüsusən də xarici sərmayənin ölkəmizə yönəldilməsinə nail olmaqdır. Eyni zamanda Xəzər dənizinin Azərbaycana aid olan hissəsində infrastrukturun genişləndirilməsidir".

Layihənin həm də infrastrukturun genişləndirilməsi baxımından vacib olduğunu qeyd edən deputat deyib ki, Sinqapur, Birləşmiş Ərəb Əmirlikləri və digər dövlətlərin təcrübəsi göstərir ki, dənizdə süni torpaq sahələrinin yaradılması həmin ölkələrin inkişafına xüsusi töhfə verir. Bu, həm də ölkənin iqtisadi inkişaf göstəricisidir, çünki belə sahələrin yaradılması xüsusən iqtisadi inkişafa malik olan ölkələrdə müşahidə olunur. "Bu layihə bütövlükdə biznes üçün şans yaratmaqla yanaşı, xarici investorları ölkəyə cəlb edəcək. Həmçinin iqtisadiyyat üçün yeni imkanlar deməkdir", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, bütün bunlar Xəzər dənizində yalnız enerji deyil, qeyri-enerji sektoruna sərmayələrin cəlb edilməsinə də imkan yaradacaq. Bu baxımdan layihə Azərbaycan iqtisadiyyatı üçün yeni bir mərhələnin başlanması kimi xarakterizə olunur.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***



# Böyük Zəfəri bizə yaşadanları yaşatmaq borcumuzdur

## Dövlətimiz bu borcun da öhdəsindən layiqincə gəlir



**Azərbaycan Ordusu 30 ilin məğlubiyyət damğasını 44 günlük Vətən müharibəsində qazanılan Zəfərlə sildi. Qurtuluş savaşında həm də ideoloji möhkəmlik, psixoloji dözümlülük, mənəvi saflıq, döyüş ruhu, qələbə əzmi, Vətən sevgisi ilə silahlanan Azərbaycan əsgərinin qarşısında düşmən tab gətirməyib darmadağın oldu.**

Bu Zəfər minlərlə qəhrəman şəhidin qanı, igid qazinin canı bahasına əldə edildi. Dünyanın heç bir ölkəsində müharibəyə görə insanlar bir-birini təbrik edərək gözaydınlığı vermir. Azərbaycanda isə bu, illərin həsrətinə son qoyacaq, vüsala qovuşacaq bir savaş olduğu üçün müharibə başlayanda xalq sevindi. Hər kəsin içindən gələn tək kəlmə dilində səsləndi: Nəhayət!

Baxmayaraq ki, müharibə döyüş, qan-qada və ölüm-dirimdir, amma qəhrəmanlıq, şəhidlik savaşın "naxış"ıdır, ucalıq zirvəsidir. Azərbaycan dövləti Vətənin suverenliyinə, millətin varlığına, torpağın bütövlüyünə qanı ilə möhür vuran şəhidin unudulmaması, hər zaman "yaşaması" üçün xatirəsini uca tutur, ailəsindən qayğını əsirgəmir. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı müvafiq kateqoriyadan olan insanlara həmin qayğının və yüksək diqqətin bariz nümunəsidir.

Faktlara müraciət edək. Ötən dövrdə 126 min unikal şəxs 326 min sosial dəstək tədbiri ilə əhatə olunub. Belə ki, 3320 şəhidin (o cümlədən 86 mülki şəhid) 8811 ailə üzvünə 17313 sosial ödəniş (8606 Prezident təqaüdü, 5666 sosial müavinət, 3041 pensiya) təyin edilib. 229 mülki şəhidin ailə üzvlərinə və müharibə ilə əlaqədar əlilliyi olan 4039 şəxsə 8078 sosial ödəniş təyin edilib. Məşğulluq marafonu çərçivəsində 690 işəgötürən tərəfindən 2538 şəxs müvafiq işlə təmin olunub.

Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan və həssas təbəqədən olan şəxslərə 6000 mənzil verilib. Müharibə əlillərinə 474 ədəd avtomobil verilib. Birinci Qarabağ və Vətən müharibəsinin iştirakçısı olmuş 460 hərbçi 481 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib. 11 min nəfərə 56,3 min reabilitasiya xidməti göstərilib.

Vətən müharibəsi başa çatdıqdan sonra İkinci Qarabağ müharibəsində şəhid olanların ailələrinə, eləcə də yaralanan əsgərlərimizə dəstək verilməsi üçün bir sıra mexanizmlərin hazırlanması böyük sosial əhəmiyyət daşıyır. Prezident İlham Əliyev Şuşa səfərlərinin birində hərbçilərlə görüşərkən deyib ki, bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Eyni zamanda Vətən müharibəsinin qazilərinə hərtərəfli dövlət dəstəyi göstərilir. Bəli, Zəfər tarixini yazanlara dəstək olmaq, onlara qayğı göstərmək təkcə dövlətin deyil, hər bir vətəndaşın borcudur. Bu borcu dövlətimizin başçısı şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşündə çıxışı zamanı dilə gətirib: "Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı".

Böyük Zəfəri bizə yaşadanlara bir ömür minnət borcumuz olduğunu unutmamalıyıq. Qələbədən sonra "Yaşat" Fondunun yaradılması da məhz bu zərurətdən irəli gəldi. Fondun rəsmi sərəncamla yaradılması dövlət başçısının Vətən torpaqlarının işğaldan azad olunmasında iştirak edənlərə qayğı ilə yanaşdığının sübutudur. Qeyd edək ki, bu sərəncam təkcə 44 günlük savaş iştirakçılarına deyil, həm də Birinci Qarabağ müharibəsi və atəşkəs dövründə şəhid olanlara, onların ailələrinə və qazilərə, müharibə əlillərinə şamil edilir.

"Yaşat" Fondu fəaliyyətə başladığı vaxtdan indiyədək bu vəzifənin öhdəsindən lazımınca gəlməkdədir. Fondun gördüyü işləri rəsmi statistikanın dili ilə diqqətə çatdıraq. 2023-cü ildə bu qurumun hesabına ümumilikdə 87208,2 min manat vəsait daxil olub. Bundan 79484 manat xərclənib, qalıq vəsait 7724,2 min manat olub. Şəhid ailələrinin və qazilərin məişət şəraitinin yaxşılaşdırılması istiqamətinə 42153,3 min manat, müalicə və psixoloji dəstək üçün 27394,7 min manat yönləndirilib. Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri üzrə şəhid ailə üzvlərinin 532 və yaralıların 171 müraciəti olmaqla, ümumilikdə 703 müraciət təmin edilib. Təhsil haqqının qarşılanması ilə bağlı 588 müraciət üzrə ödəniş "Yaşat" tərəfindən, 115 müraciət üzrə ödəniş isə fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb. Müraciətlərin təmin edilməsi üçün fondun büdcəsindən 2424,6 min manat vəsait aidiyyəti üzrə xərclənib.

Müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 46406, itkin ailə üzvlərinin 6 və yaralıların 11030 müraciəti təmin edilib. Bunun üçün fondun büdcəsindən 27394,7 min manat vəsait xərclənib. 185 nəfər (178 ağır yaralı və 7 şəhid ailəsi) müalicə olunmaq üçün Türkiyəyə göndərilib. Onlardan 180 nəfəri sağalaraq Vətənə dönüb, 5 yaralının müalicəsi isə davam edir.

Sadaladığımız və sadalamadığımız faktlar, əlbəttə, müharibənin mənəvi və fiziki yaralarını tamamilə sağalda bilməz. Amma bu, vətən göylərində dolaşan şəhid ruhlarını sakit edən bir qəlb rahatlığı ola bilər. Buradaca oğlunu döyüşə göndərən bir ananın dedikləri yerinə düşür: "Atan Birinci Qarabağ müharibəsində döyüşmüşdü. Sən İkinci Qarabağ müharibəsində döyüşə gedirsən. Torpaqlarımızın işğaldan qurtuluşu üçün vuruşacaqsan. Elə vuruş ki, atanın ruhu səndən narazı qalmasın. Atanın kəlamını unutma: Vətən olmayandan sonra mən nəyə lazımam, siz nəyə lazımsınız?!"

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Şarl MİŞEL: "Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşmanı alqışlayırıq"

**Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşmanı alqışlayırıq. AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişel sosial şəbəkə hesabında yazıb.**



"Ermənistan və Azərbaycan arasında 1991-ci il Alma-Ata Bəyannaməsinin iki ölkə arasında sərhədlərin delimitasiyası üzrə əsas götürülməsinə dair əldə olunan razılaşmanı xoş qarşılayırıq. Brüsseldəki danışıqlar zamanı da hər iki ölkənin ərazi bütövlüyünün tanınması şərti ilə sərhədlərin delimitasiyası önəmli yer tutub. Bu proses həmçinin bütün regiondakı vəziyyətin sabitləşməsi və sülh yolu ilə kommunikasiyaların açılmasına xidmət edəcək", - deyə Avropa İttifaqı Şurasının prezidenti vurğulayıb.

# "Azərbaycanla sərhədin delimitasiyasından sonra Rusiya sərhədçiləri Tavuşdan çıxacaq"

**Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası və demarkasiyasından sonra Rusiyanın sərhəd zastavaları Tavuş rayonundan çıxarılacaq.**

AZƏRTAC xəbər verir ki, Ermənistanın baş naziri Nikol Paşinyan bu barədə jurnalistlərə açıqlamasında deyib.



"Hazırda baş verənlər vəziyyətin ciddi şəkildə dəyişməsidir. Bu o deməkdir ki, artıq bizim təmas xəttimiz yox, sərhədimiz var və sərhəd sülhün əlamətidir. Azərbaycan və Ermənistan sərhədçiləri bir-biri ilə əməkdaşlıq şəraitində sərhədi müstəqil şəkildə qoruyacaqlar", - deyə Ermənistan hökumətinin başçısı bildirib.

**Ərazi bütövlüyümüz təmin edildikdən sonra Cənubi Qafqazda əsas söz sahibinə çevrilən Azərbaycan həm də regional və beynəlxalq mövqelərini getdikcə möhkəmləndirir, iqtisadi sahədə ciddi irəliləyişlərə nail olur. Dövlətin iqtisadi qüdrətinin artması isə işğaldan azad edilən torpaqlarımızda möhtəşəm tikinti-quruculuq işlərinin daha da sürətlənməsinə müsbət impuls verir.**



# İlham Əliyevin möhtəşəm quruculuq missiyası

## Prezident Qarabağ və Şərqi Zəngəzurda misli-bərabəri olmayan genişmiqyaslı layihələr reallaşdırır

Qarabağ və Şərqi Zəngəzuru "dəmir yumruq"la işğaldan azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev artıq zəfərimizdən ötən üç il beş ay müddətində bu ərazilərdə misli görünməyən quruculuq işlərini həyata keçirməkdədir. Erməni vandalizminin qurbanına çevrilmiş şəhər və kəndlərin yenidən, daha müasir formada qurulması, tamamilə dağıdılmış infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi Azərbaycan dövlətinin prioritet fəaliyyət istiqamətlərindəndir.

Onu da xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitin həcmi ildən-ilə artırılır və 2024-cü ildə bu məbləğ 4 milyard manat nəzərdə tutulub.

### Böyük köç, əhəmiyyətli infrastruktur layihələri

Ölkəmizin müxtəlif istiqamətlərindən bir-birinin ardınca köç karvanları Qarabağa, Şərqi Zəngəzura yola salınır. Həyata keçirilən böyük layihələrin nəticəsi olaraq Qarabağda və Şərqi Zəngəzurda bərpa edilmiş yaşayış məntəqələrinin və daimi məskunlaşmaq üçün bu yerlərə qayıdan məcburi köçkünlərin sayı sürətlə artmaqdadır. Zəngilandan, Füzulidən, Laçından, Talışdan sonra tezliklə "Böyük qayıdış" proqramı çərçivəsində Şuşa, Xankəndi və Xocalı şəhərləri, həmçinin Xocalı rayonunun Malıbəyli kəndinə, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə də əhalinin köçürülməsinə başlanılacaq.

Aprelin 16-da Hacıqabul rayonunda Şirvan suvarma kanalının təməlqoyma mərasimində çıxış edən Prezident İlham Əliyev bir daha dövlətin qarşısında duran prioritet məsələləri dəyərləndirərkən vurğuladı ki, Qarabağ və Şərqi Zəngəzurda tikinti-quruculuq işlərinin daha da genişləndirilməsi böyük vəsait tələb edir. Azərbaycan dövləti öz gücünə, imkanlarına arxalanan dövlətdir: "Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur. Həm yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları - cəmi üç il ərzində görülmüş işlər dövlətimizin gücünü, hökumətimizin və dövlətimizin iradəsini göstərir".

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indi quruculuq işləri ilə bərabər, kənd təsərrüfatının inkişafı da geniş vüsət alıb. Oraya qayıdan vətəndaşlar artıq bu imkanlardan istifadə edirlər. Eyni zamanda ən müasir texnologiyaların tətbiqi nəticəsində orada həm taxılçılıq, həm də meyvəçilik, bostançılıq, üzümçülük geniş vüsət alacaq.

Prezident həmçinin vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ən gözəl yerlərindən biridir və kənd təsərrüfatı üçün yararlı torpaqların, su resurslarının - çayların, bulaqların, yaylaqların mövcudluğu həm heyvandarlıq, həm də bitkiçilik üzrə çox böyük imkanlar yaradır: "Biz hər şeyi planlı şəkildə edirik ki, hər qarış torpaqdan maksimum məhsuldarlıq, maksimum səmərə götürək və bunu edəcəyik. Əgər biz işğaldan azad olunmuş ərazilərdə layihələri əlavə etsək, mənzərə daha ürəkaçan olacaq. Çünki Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq".

Dövlət başçısının söylədiyi kimi, vaxtilə Ermənistan təkcə torpaqlarımızı yox, su resurslarımızı da işğal etmişdi. Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır.

Bir müddət bundan əvvəl Ağdam rayonunda Xaçınçay su anbarının açılışı olduğunu xatırladan İlham Əliyev daha bir müjdəli xəbər verərək yaxın gələcəkdə Füzuli rayonundakı Köndələnçay su anbarının da açılacağını söyləyib.

Hazırda Zabuxçay su anbarının inşası gedir. Suqovuşan su anbarı demək olar ki, yenidən qurulub və o anbardan çıxan iki kanalın biri artıq tam təmir edilib, ikinci kanal da təmir ediləcək və beləliklə, erməni işğalına görə sudan məhrum olmuş bir neçə rayona su veriləcək. Yeni əkin sahələrinin həcmi 100 min hektara yaxın olacaq.

Qarabağ və Şərqi Zəngəzurda digər böyük suvarma layihələri də nəzərdə tutulur. Həkəriçay, Bərgüşadçay su anbarlarının və kanalların inşa edilməsi qərara alınıb. İndi texniki-iqtisadi əsaslandırmalar hazırlanır. Gələn ildən bu layihələrin icrasına da başlana bilər.

### 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu inşa olunacaq











Tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu da tamamilə yenidən qurulub istifadəyə veriləcək. Hər iki iqtisadi rayonda tikinti-quruculuq işləri ilə paralel olaraq yolların da yenidən qurulması, körpü və tunellərin tikintisi həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturu layihələrinin icrası fasilə verilmədən davam etdirilir.

Ümumiyyətlə, azadlığa qovuşmuş ərazilərimizdə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası nəzərdə tutulur. Bu layihələrdən daha birinin - Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb. Suqovuşan-Kəlbəcər avtomobil yolunun 9-cu km-dən ayrılan və 33,5 km uzunluğa malik Ağdərə-Ağdam avtomobil yolunun hərəkət hissəsinin eni 9 metrdir. Torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa edilir. Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir. Yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır. Bundan başqa, layihə üzrə Ağdam ərazisində Xaçınçay çayı üzərində 5 aşırımlı körpü də inşa edilir. Hazırda körpü dayaqlarının tikintisi icra olunur. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Ağdərə-Ağdam avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

Ümumiyyətlə, "Böyük qayıdış" proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min keçmiş məcburi köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman və xidmət obyektləri, yollar, 130-dan çox tunel və körpü (40 tunel, 90 körpü) inşa edilir.

Bütün bunlar sadəcə olaraq işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq. Yəni geniş quruculuq işləri görülür.

Bir sözlə, İkinci Qarabağ müharibəsindəki şanlı qələbədən sonra yaranan yeni reallıq göz önündədir. Qarşıya qoyulan birnömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır. Tezliklə bu yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*












# İlham Əliyevin növbəti böyük diplomatik qələbəsi

## Quterreş Azərbaycan və Ermənistanı münasibətlərin normallaşması üçün bütün məsələləri həll etməyə çağırıb

**BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan və Ermənistanı münasibətləri normallaşdırmaq üçün bütün qalan ikitərəfli məsələləri həll etməyə çağırır. AZƏRTAC xəbər verir ki, bu barədə BMT-nin Baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrikin bəyanatında deyilir.**



"O (Baş katib - red.), aprelin 19-da Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası üzrə müvafiq dövlət komissiyaları arasında əldə edilmiş razılaşmanı alqışlayır", - deyə məlumatda bildirilir.

"Baş katib tərəfləri sərhədin qalan hissələrinin delimitasiyası və demarkasiyasını davam etdirməyə və münasibətlərin tam normallaşması üçün bütün həll olunmamış ikitərəfli məsələləri həll etməyə çağırır", - Düjarrik əlavə edib.

Qeyd edək ki, ötən gün Azərbaycan və Ermənistan arasında sərhəddə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü keçirilib. Görüş zamanı Qazaxın Ermənistan tərəfindən işğal olunan 4 kəndinin Azərbaycana qaytarılması barədə razılıq əldə edilib.

## İsveçin xarici işlər naziri Qazaxın kəndlərinin Azərbaycana qaytarılması ilə bağlı paylaşım edib

**İsveçin xarici işlər naziri Tobias Billström Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası ilə bağlı razılığın əldə olunması ilə əlaqədar öz "X" hesabında paylaşım edib.**


Tobias Billström
@TobiasBillstrom
Very good news for Armenia and Azerbajdzjan and for the entire region of South Caucasus. From this positive development we might see a lot of progress arrive in the shape of economic development, infrastructure and growth for the region. Sweden is fully committed to this end.

T.Billström qeyd edib: "Bu, həm Ermənistan və Azərbaycan, həm də bütün Cənubi Qafqaz regionu üçün çox yaxşı xəbərdir. Bu müsbət addım sayəsində bölgədə bundan sonra iqtisadi tərəqqi, infrastrukturun inkişafı və genişlənməsi ilə bağlı əhəmiyyətli irəliləyişlər görə bilərik. İsveç bu məqsədə tamamilə sadiqdir".

## Zəfərdən zəfərə

### İlham Əliyev Qazaxın 4 kəndinin işğaldan azad olunmasını təmin etdi




**Rusiya sülməramlı kontingentinin ölkəmizi tərk etməyə başlamasının ardınca Azərbaycan ictimaiyyəti daha bir xoş müjdə aldı. Belə ki, Azərbaycanla Ermənistan nümayəndələrinin aprelin 19-da keçirilən dövlət sərhədinin delimitasiyası üzrə növbəti görüşündə delimitasiya prosesinin ilkin mərhələsində sərhəd xəttinin ayrı-ayrı hissələrinin keçmiş Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırıblar. Bu o deməkdir ki, hazırda Ermənistanın işğalı altında olan bu 4 qeyri-anklav kənd Azərbaycana qaytarılır.**

#### Uzaqgörən və qətiyyətli siyasətin məntiqi nəticəsi

Hələ Vətən müharibəsindən illər öncə Azərbaycan ictimaiyyəti əmin idi ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı, Prezident İlham Əliyevin yeni mərhələyə yüksəltdiyi inkişaf və yüksəliş siyasətinin nəticəsi olaraq torpaqlarımız işğaldan mütləq azad ediləcək. 44 günlük savaşdan öncə baş verən hərbi əməliyyatlar - 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşləri təsdiqlədi ki, torpaqlarımızın işğaldan azad ediləcəyi gün uzaqda deyil. Bu əminliyi gücləndirən əsas amillər Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyü mövzusunda prinsipial siyasət yürütməsi, ərazilərimizdə ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini və nəyin bahasına olursa-olsun, torpaqlarımızın işğaldan azad olunacağını hər zaman qətiyyətlə bəyan etməsi və Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılması idi.

2020-ci ilin sentyabrında başlanan İkinci Qarabağ müharibəsi buna qədər torpaqlarımızın azadlığı ilə bağlı bütün söylənən fikirlərin, Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasətinin təntənəsinə çevrildi. 44 gün davam edən bu müharibə göstərdi ki, torpaqlarımızın azadlığı uğrunda mübarizədə heç bir qüvvə Azərbaycan dövlətinin və onun Prezidentinin qarşısını ala bilməz. Dəqiqliklə hazırlanıb həyata keçirilən "Dəmir yumruq" əməliyyatının nəticəsi olaraq Şuşa zəfərindən sonra düşmən kapitulyasiya etdi, məğlubiyyətinin hüquqi-siyasi təsdiqi olan üçtərəfli Bəyanata imza atmağa məcbur olundu.

Vətən müharibəsinin ardınca 2020-ci ilin noyabrında Ağdam, Füzuli və Kəlbəcər rayonlarının azad edilməsi, növbəti mərhələdə Laçın şəhərinin və Zabux kəndinin Azərbaycanın nəzarətinə keçməsi Vətən müharibəsindəki şanlı Zəfərimizə yeni rəng qatdı.

#### Müzəffər Ali Baş Komandan Qarabağda erməni separatizminə son qoydu

Beləliklə, Prezident İlham Əliyev təmkinlə və böyük uzaqgörənliklə torpaqlarımızın işğaldan azad olunmasını təmin etdi. Eyni zamanda Azərbaycan ictimaiyyəti əmin idi ki, Müzəffər Ali Baş Komandan separatçıların vaxtilə mövcud olduğu Qarabağ üzərində də dövlətimizin suverenliyini bərpa edəcək, Azərbaycan ərazisində "boz zona"nın mövcudluğuna imkan verməyəcək. Xalqımız bilirdi ki, dünya erməniliyinə qalib gələn Prezident İlham Əliyev Qarabağdakı erməni separatizminin də kökünü kəsəcək. Bir il bundan əvvəl, 2023-cü ilin aprel ayının 23-də Laçın rayonu ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ərazi bütövlüyümüzün bərpası istiqamətində tarixi hadisə olmaqla yanaşı, Qarabağda erməni separatizminə son qoyulmasına aparan yolun əsas mərhələlərindən biri oldu.

Prezident İlham Əliyev ötən ilin may ayında Laçından separatçılara xəbərdarlıq edərək demişdi: "…Onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər".

Prezident İlham Əliyev necə demişdisə elə də etdi, ötən ilin sentyabrında həyata keçirilən və cəmi 23 saat davam edən antiterror tədbirlərində Qarabağdakı 200 illik erməni separatizmi məhv edildi. Əli xalqımızın qanına bulaşmış erməni terrorçuları isə qandallanaraq Bakıya gətirildilər.

#### Qərbin qarayaxma kampaniyası darmadağın edildi

Qarabağda erməni separatizminə son qoyulması ilə Prezident İlham Əliyev bütün torpaqlarımız üzərində milli suverenliyimizi bərpa etdi. Bu hadisə bir daha göstərdi ki, dövlətimizin başçısı böyük siyasi uzaqgörənliklə Azərbaycanın milli maraqlarını təmin edən güclü və qətiyyətli liderdir.

Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı Qazaxın kəndləridir və Ermənistan tərəfindən 1990-cı illərin əvvəllərində işğal ediliblər. Bağanıs Ayrım işğal olunmuş və yandırılmış ilk kənd kimi Azərbaycan tarixinə daxil olub. Bu kənd 1990-cı il martın 23-dən 24-nə keçən gecə erməni silahlı quldurları tərəfindən işğal edilib.

Azərbaycan Ermənistanın işğal altında olan 8 kəndinin qaytarılması məsələsini illər öncədən qaldırıb. Prezident İlham Əliyev bu ilin yanvar ayında yerli televiziya kanallarına müsahibəsində bununla bağlı bildirmişdi ki, işğal altında qalan səkkiz kəndin məsələsi daim gündəlikdədir: "Bu məsələ həm mənim Ermənistanın baş naziri ilə təmaslar əsnasında müzakirə edilir, o cümlədən Sankt-Peterburqda ayaqüstü son söhbət zamanı mən bu məsələni qaldırmışdım və eyni zamanda delimitasiya ilə bağlı komissiyaların gündəliyində də bu məsələ dayanır".

Azərbaycanın Ermənistanın işğal altında olan 8 kəndindən 4-ü anklav, 4-ü qeyri-anklavdır. Hazırda Azərbaycana qaytarılan 4 qeyri-anklav kəndlə bağlı Prezident qeyd etmişdi ki, onlar qeyd-şərtsiz qaytarılmalıdır: "O ki qaldı işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır".

Beləliklə, Prezident İlham Əliyevin söylədiyi kimi, 4 qeyri-anklav kənd qeyd-şərtsiz Azərbaycana qaytarılır. Azərbaycan və Ermənistan delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar. Məsələyə münasibət bildirən ABŞ-nin Dövlət katibi Entoni Blinken Ermənistan və Azərbaycanın iki ölkə arasında sərhədlərin delimitasiyası üçün 1991-ci il Alma-Ata Bəyannaməsini əsas tutaraq razılaşmalarını alqışladıqlarını qeyd edib. "Bu, dayanıqlı və ləyaqətli sülh sazişinin bağlanması yolunda mühüm addımdır", - deyə o "X" sosial şəbəkə hesabında bildirib.

Bu hadisə son 3 il yarım ərzində Azərbaycanın növbəti böyük qələbəsidir. 4 kəndin qaytarılması Prezident İlham Əliyevin böyük diplomatik uğurudur. Bununla həm də Azərbaycanın guya Ermənistana hücum edəcəyi ilə bağlı Qərb siyasi dairələrinin neçə müddətdir ki, ölkəmizə qarşı apardığı qarayaxma kampaniyasını İlham Əliyev darmadağın etdi. Bu baxımdan bildiririk ki, bəzi Qərb dövlətləri və neoimperialist dairələr nə qədər proseslərdən uzaq dayansalar, Cənubi Qafqazda sülh və əmin-amanlıq o qədər tez təmin olunacaq.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Azərbaycanın növbəti tarixi uğuru

**Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə əldə olunmuş razılığa əsasən, Qazaxın 4 kəndinin Azərbaycana geri qaytarılması Prezident İlham Əliyevin prinsipial qələbəsidir. İşğalda olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin Azərbaycan tərəfə qaytarılması barədə razılıq bilavasitə İlham Əliyevin bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində ifadə etdiyi qətiyyətli mövqeyinin realizəsidir. Xatırlatmaq lazımdır ki, Prezident sözügedən müsahibəsində "O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır", - deyə bəyan etmişdi.**



Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Azərbaycanın beynəlxalq hüquqla, o cümlədən Ermənistanın tez-tez istinad etdiyi 1991-ci il Alma-Ata Bəyannaməsinə əsasən, özünəməxsus olan bir qarış torpağı belə, güzəştə getmək niyyətində olmadığı aydındır: "Rəsmi Bakı bu mövqeyini açıq formada dəfələrlə bəyan etmişdi. Vətən müharibəsi və antiterror tədbirlərində atılan qəti addımlar fonunda ötən dövrün təcrübəsinə əsaslanan Ermənistan və havadarları da yaxşı anlayırdılar ki, bu məsələdə Prezident İlham Əliyevin səbrini sınamaq heç də yaxşı nəticə verməyəcək. Azərbaycan yeni hərbi gərginlik arzulamır, hətta biz Konstitusiyamızın 9-cu maddəsində rəsmən bəyan etmişik ki, Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Lakin biz eyni zamanda işğalda qalan 8 kəndimizi azad etmək üçün güc tətbiq etməyəcəyimiz barədə öhdəlik də götürməmişik. Bu mənada, Azərbaycanın yaratdığı hərbi-siyasi reallıqların nəticəsi olan 19 aprel tarixli ilkin razılığın əsas əhəmiyyəti ondan ibarətdir ki, hər hansı hərbi məcburetmə tədbirlərinə ehtiyac duyulmadan Ermənistanın bizim ilkin şərtimizə uyğun olaraq qeyri-anklav kəndlərimizi bir güllə atılmadan, dinc şəkildə təhvil verməsi ilə qan tökülməsinin qarşısı alındı. Bu, Müzəffər Ali Baş Komandanın 2020-ci il 10 noyabr kapitulyasiya aktına müvafiq olaraq Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana təhvil verilməsində ehtiva olunan tarixi uğurunun təkrar olunması deməkdir".

Deputatın sözlərinə görə, sərhəd xəttinin adıçəkilən istiqamətdəki hissələrinin təsviri koordinatlarının 15 may 2024-cü il müddətinədək yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirilərək tərtib olunması barədə qərar qəbul edilməsi isə o deməkdir ki, Azərbaycan 2020-ci ildə Ağdam, Kəlbəcər və Laçının boşaldılması məsələsində olduğu kimi, bu dəfə də xoş niyyət göstərərək Ermənistana konkret tarix üzrə möhlət verib. "Ümumiyyətlə, kəndlərimizin geri qaytarılması barədə ilkin razılıq elə bir situasiyadır ki, sağlam təfəkkürə malik heç bir subyekt bu prosesdə məğlub görünmür. Daha doğrusu, əgər Ermənistanda hansısa dairələr həmin kəndləri hələ də özününkü hesab edirsə, bu razılaşma həmin qüvvələrin ciddi məğlubiyyətidir. Beynəlxalq hüquqa hörmətlə yanaşanlar isə özünün olmayan ərazilərə iddialardan könüllü surətdə əl çəkərək sağlam iradə nümayiş etdirməklə bu uğurdan pay götürə bilir", - deyə müsahibimiz qeyd edib.

Bəhruz Məhərrəmov söyləyib ki, razılaşmanı uğurlu edən digər amil isə delimitasiya prosesinin sərhəd xəttinin ayrı-ayrı hissələrinin hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq həyata keçirilməsi ilə bağlıdır: "Azərbaycan Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan sülh prosesində delimitasiyanın məhz bu şərtlər üzrə aparılmasını doğru hesab edirdi. Görünən odur ki, Ermənistan, nəhayət, üç il yarım sonra Bakının mövqeyinin hüquqi cəhətdən qanuni və ədalətli, praktiki cəhətdən isə səmərəli olmasını dərk etməyə başlayıb. İndi qalır yaxın 25 gün ərzində məsələnin tərəflər arasında müvafiq protokol-təsvirlə sənədləşdirilib, razılaşdırılıb imzalanması. Bununla delimitasiya, hətta demarkasiya prosesində ilk real addım atılmış olacaq".

Deputat Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmanın digər diqqətçəkən məqamının delimitasiya ilə bağlı ilkin müzakirələrin məhz anklav olmayan kəndlərimizdən başlanması olduğunu bildirib. Müsahibimiz xatırladır ki, Azərbaycan Prezidenti bu ilin əvvəllərində prosesin Tovuz-Qazax bölgəsi istiqamətindən - hələ də işğalda qalan kəndlərimizdən başlanmalı olduğunu ifadə etmişdi. "Delimitasiya və sərhəd təhlükəsizliyi ilə bağlı komissiyaların iclasında alınan qərar da nümayiş etdirdi ki, gündəlik məhz Azərbaycanın diktəsi ilə müəyyənləşir. Lakin bu da faktdır ki, Bakının beynəlxalq hüquqa əsaslanan bu mövqeyini realizə etməsi Ermənistan üçün hansısa formada təhdid yaratmır, əksinə, İrəvan gərginliyə yol aça biləcək təcavüzkar mövqeyindən əl çəkməklə qarşılıqlı etimad mühitinə töhfə vermiş olur", - deyə B.Məhərrəmov deyib.

Delimitasiya və demarkasiyanın uzun sürən mürəkkəb proses olduğunu bildirən deputat əlavə edib: "Dövlətlər arasında münasibətlərin hətta ən yüksək səviyyədə olması belə bu prosesin on illərlə uzanmasına əngəl törədə bilmir. Məsələn, Azərbaycanın dost Gürcüstanla sərhədinin cəmi 70 faizi müəyyən olunub və təsdiqlənib. Yaxud müttəfiqimiz Rusiya ilə 20 il davam etmiş delimitasiya prosesi 2012-ci ildə başa çatsa da, hələ də demarkasiya tam aparılmayıb. Azərbaycanla uzun illər münaqişədə olmuş, 30 il ərazilərimizi işğalda saxlamış Ermənistanla isə delimitasiya və demarkasiya prosesinin daha çətin keçəcəyi sirr deyil. Lakin komissiyaların sayca 8-ci iclasında işğalda olan 4 kəndimizin dinc yolla qaytarılması barədə razılığa gəlinməsi bizə daha nikbin düşünməyə əsas verir".

Bəhruz Məhərrəmov həmçinin qarşıda prosesin davamlılığının təmin olunması kimi ciddi bir vəzifə dayandığını vurğulayıb. Bildirib ki, prosesləri qabaqlamaq faydalı deyil, lakin indiki məqamda dəqiqləşən növbəti addım Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərindən erməni ordu hissələrinin çıxarılaraq həmin məntəqələrin təhvil verilməsindən sonra sərhəd xəttinin razılaşdırılmış hissələrində tərəflərin öz sərhəd xidmətlərinin eyni vaxtda və paralel yerləşdirilməsi təşəbbüsüdür. Daha sonra isə növbə anklav kəndlərindir. Dövlət başçısının 10 yanvar 2024-cü il bəyanatında da ifadə olunduğu kimi, "Həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir".

Deputat yekunda sülh və sabitlik üçün yaranmış unikal imkanın hədər getməməsi üçün Ermənistanın iradə nümayiş etdirməsinin vacibliyinə diqqət çəkib. Müsahibimiz vurğulayıb ki, Paşinyan iqtidarı iradəsini qorumasa və proses üzrə öhdəliklərindən geri çəkilsə, bu, ilk növbədə elə erməni xalqının rifahı, təhlükəsizliyi və maraqlarına tarixi zərbə olacaq.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

## Ərəb mediası Ermənistanın 4 kəndi Azərbaycana qaytarması barədə xəbərlər dərc edib

**Azərbaycan və Ermənistan arasında sərhəddə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə Qazax rayonunun 4 kəndinin Bakının suverenliyinə qaytarılması üzrə əldə olunmuş razılaşma ərəb ölkələri mediasının diqqət mərkəzindədir.**




AZƏRTAC xəbər verir ki, İraqın "Avsat", Misirin Əl-Əhram və Əl Qahirə, Qətərin "Aşarq", Birləşmiş Ərəb Əmirliklərinin "Şarjah24", "Əl İttihad", "arab21", Böyük Britaniyada nəşr olunan "Əl Qüds", Səudiyyə Ərəbistanının "Ər Riyad", Livanın "Lebanon24", İordaniyanın "Ammonnews", "Əl Mayaden" qəzet və portallarında dərc olunmuş materiallarda Azərbaycan və Ermənistanın sərhədlərin delimitasiyası prosesini 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun həyata keçirdikləri və artıq 4 kəndin Bakının suverenliyinə qaytarılması diqqətə çatdırılıb.

Ərəb mediası vurğulayıb ki, komissiyaların ilk razılaşması iki ölkə arasında davamlı sülhə nail olunmasında mühüm addımdır. Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, sərhədlərin delimitasiyası və demarkasiyası prosesi davam edir və onun nəticələri Cənubi Qafqazda möhkəm sülhün və təhlükəsizliyin bərqərar olunmasında böyük əhəmiyyətə malikdir.

# İlham Əliyevin növbəti böyük diplomatik qələbəsi

## Bir güllə atılmadan...

### Müzəffər Ali Baş Komandan Qazaxın 4 kəndini də öz sahiblərinə qaytarır

**Azərbaycan xalqı olaraq milli maraqlarımızın təmini istiqamətində ard-arda qazanılan misilsiz qələbələrin qüruru ilə köksümüzün qabardığı tarixi günlər yaşayırıq. 2024-cü il aprelin 19-u tarixi isə daha bir müjdə aldıq, Qazax rayonunun 4 kəndinin də bir güllə atılmadan, bir itki verilmədən Azərbaycana qaytarılmasının şadlığına büründük.**



Bu xəbər neçə-neçə keçmiş məcburi köçkünümüzün onilliklərdir çəkdikləri yurd özləminin, həsrətinin bitməsi, haqqın, ədalətin daha bir zəfəridir.

Bu qələbə həm də tarixi torpaqlarımızı addım-addım, qarış-qarış əsl sahiblərinə qaytaran müzəffər sərkərdə İlham Əliyevin Azərbaycan xalqına növbəti möhtəşəm hədiyyəsidir.

### Dəqiq zaman, sərrast hədəf

Nəyi necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən qalib lider İlham Əliyevin əzmlə, qətiyyətlə, məharətlə apardığı siyasət nəticəsində 2020-ci ilin sentyabrında çıxdığımız haqq yürüşü Şuşa zəfəri ilə zirvələrə daşınıb, Ağdam, Kəlbəcər, Laçın bir güllə atılmadan, bir itki verilmədən azadlığına qovuşdurulub. 2023-cü ildə həyata keçirilən 23 saatlıq antiterror tədbirləri nəticəsində suverenliyimiz tam təmin olunub. "Dəmir yumruq" ikiəsrlik erməni avantürasını cəmi üç ilə diz çökdürüb. Tarixi ərazilərimizə göz dikərək xalqımızın qanına susayan faşizm xislətli erməni millətçilərinə və onların xaricdəki havadarlarına başa saldı ki, Azərbaycan heç zaman suveren ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək.

"İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi", - deyə 2023-cü il sentyabrın 20-də xalqa müraciətində Prezident İlham Əliyevin bəyan etdiyi kimi, sərsəm "böyük Ermənistan" planları "dəmir yumruğ"un qətiyyətli zərbələri ilə məhv edildi.

Qarabağda separatizmin məhv edilməsi ilə Rusiya sülhməramlılarının fəaliyyətinə də bölgədə ehtiyac qalmadı. Bu, rəsmi şəkildə də təsdiqini tapdı və vaxtından əvvəl Rusiya sülhməramlı kontingenti Azərbaycan ərazilərini tərk etməyə başladı.

Xüsusi vurğulayaq ki, bu məsələdə Prezident İlham Əliyevin şəxsi səyləri var. Belə ki, 10 noyabr Bəyanatında sülhməramlıların 2025-ci ilə qədər müvəqqəti olaraq yerləşdirilməsi maddəsinin əksini tapmasını məhz Prezident İlham Əliyev israr etmişdi və dövlətimizin başçısının qətiyyətli siyasətinin nəticəsində bu proses də öz məntiqi sonluğuna çatdırılmışdı.

Prezident İlham Əliyevin yürütdüyü diplomatik, məharətli siyasətin növbəti addımı isə Qazax rayonunun 4 kəndinin Azərbaycana qaytarılmasıdır. 4 qeyri-anklav kəndin bir güllə atılmadan, qan tökülmədən azad edilməsi Azərbaycanın və Prezident İlham Əliyevin növbəti qələbəsidir.

Hələ 2020-ci ildə Prezident İlham Əliyev qeyri-anklav kəndlərin qaytarılması məsələsini qaldırmış və ötən müddət ərzində mövzu daim gündəlikdə saxlanılmışdı. Nəticədə həmin kəndlər də azad edilir.

Əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar.

### Kiminsə vasitəçiliyinə ehtiyac yoxdur

Qazax rayonunun 4 kəndinin qaytarılmasının timsalında həm də digər bir mühüm məqam özünü qabarıq büruzə verir ki, bu da Azərbaycanla Ermənistan arasında normallaşma prosesində üçüncü tərəflərin iştirakına lüzum görülməməsidir.

Bu faktın özü də göstərir ki, iki ölkə arasında sülh əldə olunması üçün aparılan danışıqlarda kənar vasitəçilərə heç bir ehtiyac yoxdur. Əksinə, onların bu prosesdə tərəf kimi iştirak etmək cəhdləri münasibətlərin daha da korlanmasına, sülhün sual altına düşməsinə gətirib çıxarır. Buna Fransa prezidenti Emmanuel Makronun riyakar davranışlarının timsalında da dəfələrlə şahidlik etmişik.

Vətən müharibəsindən dərhal sonra Azərbaycan 5 baza prinsipi əsasında Ermənistana təkmil sülh modeli təklif edib. Ötən dövrdə Bakı sülh gündəliyinə sadiq qalıb və bu istiqamətdə effektiv addımlar atıb. Lakin qarşı tərəf xarici havadarlarının dəstəyi ilə qeyri-konstruktivlik nümayiş etdirərək sülh müqaviləsini imzalamaqdan yayınıb.

Xüsusən Qarabağda separatizmə son qoyulmasından sonra başda ABŞ və Fransa olmaqla qərəzli Qərb ölkələri Ermənistan üzərindən regiondakı işlərə hər vasitə ilə qarışmaq üçün məkrli yollar axtarır, riyakar planlar cızırlar. Onlar Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, ölkəmizin Ermənistana hücum etməyə hazırlaşması kimi yalanlar tirajlayır, bir sözlə, ən müxtəlif platformalarda Bakıya təzyiq göstərməyə çalışırlar. Ancaq Azərbaycan hər dəfəsində onları ifşa edir və yerlərinə otuzdurur.

Ölkəmiz yenə də ABŞ və Aİ-nin bu məsələlərə müdaxiləsinə imkan vermədi. Belə ki, Ermənistan və Azərbaycan birgə qarşılıqlı anlaşma şəraitində dil tapıb məsələni həll etdilər.

"Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun", - deyə fevralın 14-də andiçmə mərasimində Prezident İlham Əliyevin də vurğuladığı kimi, qərəzli Qərb təsisatları proseslərdən uzaq dursalar, Cənubi Qafqazda hadisələr sülh istiqamətində cərəyan edər.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Zəfər salnaməmizin yeni səhifəsi



**"Qazax rayonunun dörd kəndinin Azərbaycana qaytarılması ilə bağlı aprelin 19-da xarici siyasət idarəmiz tərəfindən yayılan şad xəbər 44 günlük Zəfər savaşında Ali Baş Komandanın millətimizə etdiyi xitab və müraciətlərin davamı kimi qiymətləndirilməlidir. Bu tarixi hadisə ölkə ictimaiyyətinin və dünya azərbaycanlılarının həm də qürur salnaməsi kimi qəbul edilə bilər".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib. Komitə sədri bildirib ki, tariximizə baxdıqda ərazilərimizi üç əsrdən çox müddətdə, hətta bəzən kənd-kənd, oba-oba, ev-ev itirdiyimiz və bu itkilərin müxtəlif formasiyalarda gerçəkləşdiyi aydın olur. Xatırlatmaq yerinə düşər ki, biz çarizmdən öncə, xanlıqlar dövründə də, əfsuslar olsun ki, vahid dövlətçilikdən danışa bilmirdik. Bu anlamda Prezident İlham Əliyevin tarixi missiyasını sanki bütün dövrlərdəki əcdadlarımızın ideallarının və arzularının həyata keçirilməsi missiyası kimi qəbul etməliyik.

Komitə sədri bildirib ki, 2020-ci ildən sonra Kəlbəcərin, Ağdamın, Laçının qaytarılması, amma onun paralelində heç yerdə çox da vurğulanmayan - Qazaxın bir neçə kəndinin hələ də erməni işğalı altında qalması İlham Əliyevin siyasi-diplomatik savaşı davam etdirməsini, xalqın qanının tökülmədən, itkilər verilmədən şərti müharibə aparmasını zəruri edirdi: "Bu, millətimizdən güc alan, bəzən isə hətta təkbaşına aparılan bir savaş idi. Vətən müharibəsindən sonra Sarıbaba və Qırxqız yüksəkliklərinin azad olunması, onun ardınca şərti sərhəddə keçirilən Qaragöl əməliyyatı, daha sonra 2022-ci il dekabrın 12-də başlanan və 2023-cü il sentyabrın 20-də öz zirvəsinə çatan Xankəndi zəfəri, Laçın sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması kimi faktlar sübut edir ki, İlham Əliyev strateji bir xətt və dəqiq vizyonla hərəkət edib və bu proses uğurla davam etməkdədir".

Zahid Oruc vurğulayıb ki, 2020-ci il noyabrın 10-da Rusiya Prezidenti və Ermənistanın baş naziri ilə imzalanan razılaşmadan sonra qələbəmizi ləkələmək istəyənlərin hansı böhtanlardan və arqumentlərdən istifadə etdiklərini çox yaxşı xatırlayırıq: "Rusiya sülhməramlı qüvvələrinin ərazilərimizdə müvəqqəti yerləşdirilməsi fonunda xarici dairələr, ələlxüsus da Qərb mərkəzləri zəfərimiz üzərinə böhtan savaşı açmışdılar. Çünki onlar Azərbaycanın qələbəsinin özlərinin məğlubiyyəti olduğunu dərk edirdilər. İnkar edilə bilməz ki, bizim savaşımız Minsk qrupu adlı monopolistləri ortadan qaldırdı və nəhayət, biz torpaqlarımızı azad etməklə həm də beynəlxalq irticanı, imperialist sümürgəçiliyi, əsrlərboyu müstəmləkə siyasəti aparan qüvvələri də bölgədən çıxarmış olduq. İndi isə onlar siyasi-diplomatik manevrlərlə regiona qayıtmağa və burada təzədən möhkəmlənməyə çalışırlar. O cümlədən casus şəbəkələrini də Avropanın müşahidə missiyası adı altında Göyçə dağlarından Zəngəzur dəhlizinə qədər yerləşdiriblər".

Komitə sədrinin sözlərinə görə, Prezident İlham Əliyevin qalib gücünün bütün düşmənlər tərəfindən qəbullandığını əminliklə deyə bilərik. "Erməni işğalını Rusiya orduları əvəzləyib" deyənlər hazırda arqument iflasına məruz qalıblar. Elə Qazaxın 4 kəndinin də sahiblərinə qaytarılması həmin zəncirin bir davamıdır.

"İlham Əliyev Azərbaycan idealında yaşayan bütün keçmiş liderlərin arzularını həyata keçirərək torpaqlarımızın bütövlüyünü təmin edir. Hər bir kənd, hər bir oba və hər bir ev Ali Baş Komandan üçün qiymətlidir. O, millətimizin varlığının bir göstəricisidir. İlham Əliyev, sözün həqiqi mənasında, Azərbaycanın hər qarış torpağının birləşdiricisi kimi çıxış edir. Ona görə də bu tarixi qələbəni təkcə Qazax rayonunun, orada yaşayan sakinlərin deyil, bütövlükdə azərbaycanlıların, hətta ədalət tərəfdarı olan hər bir şəxsin, habelə bütün türk dünyasının uğuru kimi dəyərləndirməliyik. Nəzərə almaq lazımdır ki, bizim məğlubiyyət silsiləmiz elə həmin kəndlərin itirilməsindən başlanıb. Ona görə də 4 kəndin geri qaytarılması bizdə Zəngəzur yolunun açılacağına və Naxçıvanla quru əlaqəsinin bərpasına da nail olacağımıza dərin inam yaradır. Biz bu gün iftixarla vurğulaya bilirik ki, İlham Əliyevin liderliyi altında xalqımız hələ daha böyük qələbələrə imza atacaq. Bu möhtəşəm tarix də hər bir azərbaycanlı tərəfindən bütün zamanlarda qürur hissi ilə qeyd olunacaq", - deyə Zahid Oruc vurğulayıb.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

## *Bağanıs Ayrım kəndinin sakini Ramiz ADIGÖZƏLOV:*

## "Bu sevinci bizə yaşadan Prezidentimizə ömürboyu minnətdar olacağıq"

**Tarixi Qələbəmizdən 3 ildən artıq vaxt keçməsinə baxmayaraq, Azərbaycan xalqı zəfər dolu həmin günləri bu gün də sevinc hissi ilə xatırlayır. Bu, o qələbədir ki, başlanğıcını 27 sentyabrdan götürdü və 10 noyabrda Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Ali Baş Komandan İlham Əliyevin rəhbəriyi altında Azərbaycan Ordusu tarixi ədaləti döyüş meydanında bərpa etdi.**



Prezident İlham Əliyevin rəhbərliyi ilə zəfər tariximiz davam edir. Növbəti qələbəmiz Qazaxın 30 ilə yaxın müddətdə işğal altında qalan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin qaytarılması ilə bağlı razılığa gəlinməsidir. Doğrudur, həmin kəndlər, demək olar ki, ermənilər tərəfindən tamamilə dağıdılmış, yaşayış üçün lazım olan nə varsa yerlə yeksan edilmişdir. Lakin bütün hallarda hər bir azərbaycanlı üçün yurd yeri müqəddəsdir. Üstəlik, həmin kəndlərin sakinləri bilirlər ki, Qarabağda və Şərqi Zəngəzurda başlanan yenidənqurma və bərpa işləri tezliklə onların yurdlarında da həyata keçiriləcək.

44 günlük Vətən müharibəsində qazanılan qələbə, 2023-cü ilin sentyabrında suverenliyin tam bərpası, rusiyalı sülhməramlıların bölgədən çıxmasından sonra 4 qeyri-anklav kəndin qaytarılması İlham Əliyevin Azərbaycan xalqına növbəti hədiyyəsidir. Qeyd edək ki, Prezident qeyri-anklav kəndlərin qaytarılması məsələsini hələ 2020-ci ildən qaldırmışdı və bu müddət ərzində mövzu daim gündəlikdə saxlanılmaqla bu istiqamətdə ardıcıl iş aparılırdı. Nəhayət, əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addım kimi uğurla nəticələndi.

30 il əzab-əziyyət içərisində yaşayan, necə deyərlər, dişi-dırnağı ilə özünə kənar yerdə yurd-yuva quran bu kəndlərin sakinləri indi sevinc içərisindədirlər. Onlar artıq dağılmış, viran qalmış kəndlərinə qayıdacaqları günün qüruru ilə yaşayırlar.

Qarabağ müharibəsinin ağrı-acılarını yaşayanlardan biri də Bağanıs Ayrım kəndinin ağsaqqal sakini Ramiz Adıgözəlovdur. Deyir ki, uzun illər min bir əziyyətlə kənddə ev-eşik qurmuşdu: "Geniş evim, bağım-bağçam var idi. Qarabağ müharibəsi başlayanda ermənilər kəndimizi, o cümlədən bizim evi də dağıtdılar. Bir günün içərisində evimizə od vurdular. Qayınanam, qayınatam, baldızım, həyat yoldaşım və 40 günlük övladım evdə yanaraq şəhid oldular. Bu dərdə baxmayaraq, sevinc içindəyəm. Allah Prezidentimizi qorusun, mənə bu sevinci yaşadan odur".

Xeyrimli kəndinin sakini Güləyə Yusifovanın da dərdi böyükdür. O, qızı Zemfiranı el adəti ilə gəlin köçürən vaxt erməni cəlladları snayper gülləsi ilə onu öldürüb gəlinlik paltarını qana qəltan etdilər, kürəkənini isə yaraladılar.

Ümumiyyətlə, 4 kənddə elə bir ailə yoxdur ki, ermənilər onlara faciə yaşatmasınlar. Aşağı Əskipara kəndindən Tofiq Qasımov, Xeyrimli kəndindən Vaqif Kərimov həmin günləri xatırlayanda gözləri yaşla dolur. Bu gün də gözləri yaşlıdır, amma bu, sevinc göz yaşlarıdır. İndi onlar doğma el-obalarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər. Bilirlər ki, Prezident İlham Əliyev onların dağıdılmış kəndlərini qısa vaxt ərzində bərpa edəcək və bununla qalan ömürlərini doğma yurdda yaşayacaqlar.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Qızılhacılı kəndinin sakinləri doğma yurdlarının qaytarılmasının sevincini yaşayırlar

**Qazax sakinləri 32 ildən çoxdur Ermənistanın işğalı altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin Azərbaycana qaytarılması ilə bağlı əldə olunan razılaşmanı böyük sevinclə qeyd ediblər.**





Xəbəri eşidən sakinlər sevinclərini bir-biri ilə bölüşərək küçələrə çıxıblar. Əsasən yeni qəsəbədə məskunlaşan sakinlər bu xəbəri əsl bayram kimi qarşılayıblar. AZƏRTAC xəbər verir ki, Qazaxda delimitasiya komissiyalarının növbəti görüşündə 4 kəndin qaytarılması ilə bağlı əldə edilən razılaşmanı Qazax sakinləri əsl bayram, qələbə kimi qeyd edirlər. Sakinlər bu uğura görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qızılhacılı kənd sakini, Birinci Qarabağ müharibəsi qazisi Eldar Quliyev qeyd edib: "Bu xəbəri eşidəndə kənd sakinləri olaraq çox sevindik. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə minnətdarıq. Kəndlərimiz geri qaytarılır və biz öz ata-baba yurdlarımıza qayıdacağıq. Ailədə 4 nəfərik, hərbi şəhərcikdə yaşayırıq. Kəndimizə qayıdıb Coğaz gölünün kənarında yaşayacağıq. Kəndimizdə əhalinin məşğuliyyəti əsasən heyvandarlıq, balıqçılıq və əkinçilikdir".

Qızılhacılı kənd sakini 63 yaşlı Solmaz Alıyeva kənd 1992-ci il mayın 11-də işğal olunandan Qazax şəhərində məskunlaşdıqlarını bildirib. Deyib ki, kənddən çıxarkən heç bir ev və şəxsi əşyasını çıxara bilməyiblər. İllərdir ata-baba yurdunun həsrəti ilə yaşayıblar. İndi isə sevinclərinin həddi-hüdudu yoxdur. Prezident İlham Əliyevin siyasi uğurunun nəticəsi olaraq qan tökülmədən, bir güllə belə atılmadan kəndlərinə qovuşacaqları üçün özlərini çox xoşbəxt hiss edirlər. "Çox sevinirik. Kəndimiz müharibəsiz, qansız-qadasız özümüzə qaytarılır. Orada mal-qaramız, toyuq-cücəmiz var idi, əkin-biçinlə məşğul olurduq. Düşmən kəndimizə od vurdu, bütün evləri dağıtdı. Biz inanırıq ki, kəndimiz yenidən bərpa olunacaq, oraya həyat yenidən qayıdacaq. Bütün bunlara görə Prezident İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk", - deyə kənd sakini əlavə edib.

Qeyd edək ki, aprelin 19-da sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın Baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü keçirilib. Görüş zamanı komissiyalar bir sıra məsələlər üzrə razılığa gəliblər.

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Münaqişə bitdiyinə görə sülhməramlılara ehtiyac yoxdur

**"Hələ ötən il oktyabrın 4-də Rusiya xarici işlər nazirliyinin rəsmisi Mariya Zaxarova qeyd etmişdi ki, Rusiya sülhməramlılarının Qarabağda qalma müddəti Azərbaycanla birgə razılaşdırılaraq müəyyən ediləcək. Həmin çıxışdan o qədər də çox vaxt keçməyib. Artıq bunun zamanı gəlmişdi. İndi sülhməramlılara ehtiyac yoxdur. Azərbaycan Daxili İşlər Nazirliyinin və digər qurumların yerli nümayəndələri Qarabağ ərazisində qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirirlər. Qarabağda lokal antiterror tədbirlərindən sonra bu ərazidə sülhün bərqərar olması, inteqrasiya istiqamətində lazımi addımlar atılıb. Təbii ki, paralel olaraq sülhməramlıların da funksiyası dəyişib".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Rusiya tərəfi də mandatın 2025-ci ilə qədər olmasına baxmayaraq, münaqişənin bitdiyinə görə Qarabağ ərazisində sülhməramlıların qalmasına ehtiyac qalmadığını başa düşür.

Bu gün Ermənistanın İran və Türkiyə sərhədini Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhədçiləri mühafizə edirlər. Zəngilan dəhlizi məsələsi də gündəmdədir. N. Paşinyan bu yolda öz qurumlarının fəaliyyət göstərəcəyini və bu məqsədlə hansısa qurumun yaradıldığını deyib.

A.Nağıyevin fikrincə, sülhməramlıların bu əraziləri tərk etməsi bir daha sübut edir ki, Qarabağ münaqişəsi tamamilə bitib. "Rusiya sülhməramlıları postsovet dövlətinin ərazisini könüllü tərk edirlər. Qeyd edək ki, Ağdamda fəaliyyət göstərən Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də fəaliyyətini dayandırıb. Bununla bağlı Türkiyə Milli Müdafiə Nazirliyi bəyanat yayıb. Bu gün Qarabağ ərazisində hərbi əməliyyatlar mövcud olmadığı üçün mərkəzin də fəaliyyətinə ehtiyac yoxdur", - deyə o əlavə edib.

"Rusiya hərbçilərinin vaxtından əvvəl getməsi Moskva və Bakının ən yüksək səviyyədə siyasi razılığa gəldiyini bir daha göstərir. Bu, artıq öz təsdiqini tapıb. Rusiya sülhməramlılarının tərkibinə gəlincə, burada 1960 rusiyalı hərbçi fəaliyyət göstərirdi. Onların kiçik və iriçaplı silahları, 90 zirehli transportyor, 380 ədəd avtomobil və xüsusi texnikası var idi. Bunlar hamısı ərazilərimizdən çıxarılır", - deyə deputat bildirib.

A.Nağıyev vurğulayıb ki, ən mühüm məsələ Azərbaycanın xarici hərbi kontingentin öz ərazilərində mövcudluğundan tam azad olmasıdır: "Qərbin Azərbaycana BMT missiyası gətirməsi ilə bağlı fikirlər səsləndirilir. Düşünürəm ki, belə bir şans yoxdur, çünki sülhməramlıların əsas vəzifəsi barış yaratmaq, sülhü bərqərar etmək idi. Əgər bu gün Qarabağda münaqişə yaradan tərəflər yoxdursa, hər hansı sülh missiyasına da ehtiyac yoxdur. İkinci məsələ budur ki, Rusiya Qarabağı tərk edibsə, bu o demək deyil ki, Qərbin bura yerləşməsinə Azərbaycan, ya Rusiya imkan verəcək. Bunu heç qonşu dövlətlər də qəbul etməz".

Deputat sonda vurğulayıb ki, Azərbaycanın müstəqil daxili və xarici siyasəti var. Bunu dəyişmək mümkün deyil.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## ABŞ-nin ikiüzlü siyasəti

### Bu ölkənin Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasına fərqli yanaşması bunu bir daha təsdiqləyir

**Azərbaycan xalqı çoxdan gözlədiyi tarixi günlərin sevincini yaşadı. Rusiya sülhməramlı kontingenti vaxtından əvvəl Qarabağı tərk etdi. Çünki illərdən bəri Ermənistanın günahı ucbatından uzadılan Qarabağ münaqişəsi artıq tarixə qovuşub.**



Beynəlxalq təşkilatların 30 il ərzində həll edə bilmədiyi münaqişəyə Azərbaycan öz gücü, qüdrəti və ən başlıcası isə, düzgün yürütdüyü xarici və daxili siyasəti ilə, 44 günlük Vətən müharibəsində Ermənistan üzərində qazandığı tarixi zəfəri ilə son qoydu. Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması Azərbaycan diplomatiyasının uğurlu tarixi qələbəsidir.

2020-ci ilin 10 noyabrında üçtərəfli Bəyanatda sülhməramlıların 2025-i ilə qədər müvəqqəti olaraq Qarabağda yerləşdirilməsi nəzərdə tutulumuşdu. Onların bölgəyə müvəqqəti yerləşdirilməsi bəndinin bəyanata salınmasını məhz Prezident İlham Əliyev israr etmişdi. Amma son proseslər də göstərdi ki, rus sülhməramlılarının 2025-ci ilə qədər qalmasına zərurət yoxdur. Çünki şanlı Azərbaycan Ordusu 2023-cü il sentyabrın 20-də uzun illər Qarabağda məskən salmış separatçıları təmizləmək üçün lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. 24 saata yaxın davam edən uğurlu əməliyyat nəticəsində separatçılar ağ bayraq qaldıraraq silahı yerə qoyub təslim oldular. Bundan sonra isə Qarabağda yaşayan ermənilər könüllü olaraq evlərini tərk edərək yaşamaq üçün Ermənistana getdilər. Rusiya sülhməramlı kontingenti öz öhdəliklərini tam yerinə yetirmişdi. Artıq Qarabağ separatçılardan və Ermənistan ordusunun tör-töküntülərindən təmizlənmişdi. Sülhməramlılar üçün, demək olar ki, bölgədə yerinə yetirilməli iş qalmamışdı. Azərbaycanın Qarabağda yaratdığı tarixi şərait sülhməramlıların bölgədən çıxması üçün zəruri şərait yaratmışdı.

Rusiya sülhməramlılarının Qarabağdan çıxmasına beynəlxalq təşkilatlar və ölkələrdən fərqli reaksiyalar verildi. Maraqlıdır ki, ABŞ məsələyə mənfi münasibət bildirdi. ABŞ-nin sülhməramlıların Qarabağdan çıxarılmasını müsbət hal kimi qiymətləndirməməsi, neqativ tərzdə şərh etməsi Amerikanın riyakarlığının daha bir göstəricisi oldu. Məlumdur ki, ABŞ də, Fransa da zaman-zaman Qarabağ münaqişəsinin həllinin ən böyük əleyhdarlarıdır. Dövlət Departamentinin nümayəndəsinin sülhməramlılarla bağlı açıqlaması ABŞ-nin yenə də əvvəlki ikiüzlü mövqeyində qaldığını təsdiq etdi. İndiyədək dünyanın bütün bölgələrindən Rusiyanı sıxışdırmağa çalışan ABŞ-nin Qarabağdakı sülhməramlılara yanaşmada fərqli mövqe ortaya qoyması təəccüb doğurmaya bilməzdi. Hansı ki, Amerika dəfələrlə Rusiyanı Dnestryanı bölgədən, Abxaziya və Cənubi Osetiyadan sülhməramlı kontingenti çıxarmağa çağırıb. Yaxşı xatırlayırıq ki, 2022-ci ilin yanvarında KTMT qüvvələrinin Qazaxıstandan çıxarılmasını alqışlamışdı. Amma Rusiya sülhməramlılarının Qarabağı tərk etməsinə fərqli yanaşması bu ölkənin ikiüzlü siyasətinə sadiq qalmasını bir daha göstərdi. Gözlənilən o idi ki, ABŞ münaqişənin başa çatmasını, Qarabağda sülhün bərqərar olmasını və sülhməramlıların bölgədən vaxtından əvvəl çıxmasını müsbət qiymətləndirəcək. Amma ABŞ-nin gözlənilənlərin əksinə bu cür addım atması onu göstərdi ki, bu ölkə regionda davamlı sülhün təmin olunmasında maraqlı deyil və öz geosiyasi məqsədlərini güdür.

Qaldı ki Rusiya sülhməramlılarının Qarabağı vaxtından əvvəl tərk etməsi, ilk növbədə Azərbaycan-Rusiya əlaqələrinin sağlam əsaslar üzərində qurulmasını göstərir. İki dövlət liderinin şəxsi münasibətləri də ölkələrimiz arasında əlaqələri gücləndirən amillərdən biridir. Tam inamla demək olar ki, sülhməramlıların çıxarılması Azərbaycanla Rusiya arasında münasibətləri zəiflədən yox, gücləndirən faktordur. Yaxın və uzaq tariximizə nəzər salanda görürük ki, iki ölkə arasında münasibətlər həmişə yaxşı olub, əlaqələr dostluq və qarşılıqlı əlaqələr istiqamətində inkişaf edib. Sülhməramlıların Qarabağdan vaxtından əvvəl çıxarılmasından sonra ikitərəfli dostluq münasibətləri daha da güclənəcək, əməkdaşlıq üçün yeni imkanlar yaranacaq. Bakı və Moskva arasındakı dostluq və mehribanlıq qarşıdakı illərdə inkişafa böyük təkan verəcək.

Rusiya sülhməramlılarının Qarabağdan çıxması regionda bir çox reallıqları da dəyişdi. Artıq Ağdamda yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi də fəaliyyətini dayandıracaq. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyindən bildirilib. Məlumatda deyilir: "Türkiyə Respublikası ilə Rusiya Federasiyası arasında imzalanan Memorandumla Qarabağ bölgəsində atəşkəs rejiminə nəzarət etmək və qanun pozuntularının qarşısının alınması məqsədilə 2021-ci il yanvarın 30-da Azərbaycanın Ağdam şəhərində yaradılmış Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətini tamamlamaq üçün proses Rusiya Federasiyası və Azərbaycan ilə koordinasiyalı şəkildə davam etdirilir". Çünki artıq Qarabağ münaqişəsi başa çatıb. Sülhməramlıların bölgədə görməyə bir işi qalmayıb.

Uzun illər Azərbaycana qarşı çirkin kampaniya yürüdən qüvvələr Rusiya sülhməramlı kontingentinin Azərbaycana yerləşməsindən sonra öz məkrli məqsədlərini yenidən ortaya qoydular və bu mövzu ilə bağlı yalan və iftiralarla dolu proqnozlar verdilər. Yalnız öz məkrli maraqlarına xidmət edən məlumatlar yaydılar. Lakin sülhməramlıların bölgədən çıxarılması onların bu əməllərinin iflasa uğramasına gətirib çıxartdı. Həmişə olduğu kimi, Azərbaycan həqiqəti qalib gəldi. Yalan və iftiralar yayan Qərb ölkələri isə pərt vəziyyətə düşdülər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## ABŞ-nin və Aİ-nin məqsədi Cənubi Qafqazı yenidən münaqişə ocağına çevirməkdir

**Aprelin 5-də Brüsseldə keçirilən Ermənistan-Avropa İttifaqı-ABŞ formatındakı görüşdən əvvəl tərəflər arasında hərbi paktın imzalanacağı haqqında xəbərlər mətbuatda yayılmışdı. Görüş öncəsi ABŞ Dövlət katibi Entoni Blinken dövlətimizin başçısı İlham Əliyevə zəng edərək aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini demişdi. Dövlət katibi sözügedən görüşün əsas mahiyyətini Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyini bildirmişdi.**

Sözügedən görüşdən sonra Brüsseldə müzakirə mövzusunun Ermənistana iqtisadi yardım olduğu deyilsə də, görüşdə hərbi paktın müzakirə edildiyini isbat edən sənəd artıq meydana çıxıb. Mediada yayılan sənəddən aydın görünür ki, ABŞ və Avropa İttifaqının Ermənistana hərbi müstəvidə hərtərəfli dəstək vermək qərarı var.

Məsələ burasındadır ki, Brüssel görüşündən öncə Ermənistanla hərbi paktın müzakirə ediləcəyinə dair yayılan məlumatlar, o cümlədən rəsmi Bakının narahatlığını açıqladığı bəyanatları Aİ və ABŞ tərəfindən israrla təkzib olunduğu kimi, ABŞ Dövlət Departamenti tələsik sözügedən məlumatı təkzib edərək "dezinformasiya" adlandırdı.

Söhbət ondan gedir ki, ABŞ-nin Ermənistanın təhlükəsizliyi barədə "narahatlıq" keçirməsi heç də yeni mövzu deyil. Ermənistanın "təhlükəsizliyi" məqsədilə hərbi yardımların edilməsi məsələsi hələ ötən ilin 5 oktyabrında Qranada görüşündə gündəmə gəlmişdi. Paşinyanla görüşən Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen "Avropa İttifaqı və ABŞ-nin Ermənistana dəstək məqsədilə birgə planının hazırlandığını" bəyan etmişdi. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə bu ilin mart ayında açıqlama verərək bildirmişdi ki, 5 aprel Brüssel görüşündə Aİ və ABŞ-nin birgə dəstək planı müzakirə olunacaq və bura "Ermənistanın müqavimətinin gücləndirilməsi" də daxildir.

ABŞ və Avropa İttifaqı bu faktı sona qədər israrla təkzib etsə də, ortalıqda mətbuatın diplomatik mənbələr vasitəsi ilə əldə etdiyi sənəd var. 20 bənddən ibarət olan sənəd Paşinyan, Lyayen və Blinkenin Brüsseldə bağlı qapılar arxasında hərbi paktı müzakirə edərək razılaşma əldə etdiklərini sübut edir. Vaşinqton İrəvana müdafiə strategiyalarının öyrədilməsi və yeni hərbi doktrinanın hazırlanması üçün ekspert dəstəyi verəcək, maliyyə ayıracaq. Ermənistanın NATO ilə əməkdaşlığını uyğunlaşdırmaq məqsədilə PARP (ikitərəfli hərbi əməkdaşlığın planlaşdırılması) və OCC (əməliyyat imkanları konsepsiyası) proqramlarından istifadə edəcək. ABŞ Ermənistanın hərbi və müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə inkişaf etdirmək, İranla sərhədə xüsusi diqqət yetirmək, sərhəd nəzarətini və təhlükəsizliyi gücləndirmək məqsədilə lazım olan dəstəyi göstərəcək. Ermənistanın KTMT standartlarına uyğun fəaliyyət göstərən Hərbi Hava Qüvvələrini və Hava Hücumundan Müdafiəsini yerində öyrənmək üçün prosesə ABŞ-dən analitik qruplar cəlb ediləcək. ABŞ Ermənistanın qabaqcıl hərbi texnika və yeni texnologiyalara çıxışını asanlaşdırmaq üçün Xarici Hərbi Maliyyələşdirmə (FMF) proqramı üzrə dəstək verəcək. FMF proqramı ABŞ-nin müttəfiqlərinə və tərəfdaşlarına silah almaq, ordunu gücləndirmək məqsədilə qrant, yaxud kredit formasında maliyyənin ayrılmasını nəzərdə tutur. Beləliklə, Ermənistan ordusunu müasir silahlarla təchiz etmək üçün ABŞ-dən maliyyə yardımı alacaq. ABŞ ordusu qarşılıqlı fəaliyyətin təmin edilməsi üçün Ermənistan ordusu ilə birgə hərbi təlimlərdə iştirak edəcək. ABŞ Beynəlxalq Hərbi Təhsil və Təlim (İMET) proqramı vasitəsilə Ermənistanın müdafiə qabiliyyətini gücləndirəcək. Bu, ABŞ tərəfindən Ermənistan hərbçilərinin təhsil alması, təlim keçməsi və hazırlanmasını nəzərdə tutur. ABŞ Ermənistan ərazisində GPS (Global Positioning System) texnologiyasının geniş tətbiqini sürətləndirməyə çalışacaq. Bu sistemin tətbiqi orduya hərbi əməliyyatlar zamanı koordinatların tapılmasından tutmuş hərəkət istiqamətlərini müəyyənləşdirməyə qədər geniş imkanlar qazandırır. Beləliklə, ABŞ-nin Ermənistana hərbi yardımı haqda təkzibolunmaz fakt ortadadır, ABŞ-ni narahat edən də budur. Dövlət Departamenti sənədi "dezinformasiya" adlandırmaqla faktları ört-basdır etməyə çalışır. Bu sənədin meydana çıxması ABŞ və Avropa İttifaqının Ermənistanı silahandırmaq planını detallı şəkildə ifşa etdi. Sənəddən də görünür ki, ABŞ və Aİ-nin məqsədi Ermənistanın "müdafiəsinə" kömək etmək deyil, bu ölkənin ordusunu döyüşə hazırlamaq, Cənubi Qafqazı yenidən münaqişə ocaqlarından birinə çevirməkdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Fransanı daha böyük iflas gözləyir

**2020-ci ilin payızında, 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və ötən il keçirilən antiterror əməliyyatlarında Azərbaycan ərazisində erməni separatçılığına son qoyulması müasir tariximizin ən böyük hadisələridir.**

Bunlar həm də Azərbaycanın tarixin ən qüdrətli dövlətinə çevrilməsinin, inkişafının və yüksəlişinin təcəssümüdür. İndi Qarabağ başdan-başa quruculuq meydanına çevrilib. Yeni yaradılan dünya standartlarına uyğun yolları, körpüləri, su-elektrik stansiyalarını, yaşayış məhəllələrini, yerli memarlıq üslubunda ucaldılan yüksəkmərtəbəli binaları, ən nəhayət, qaçqın və köçkünlərin öz dədə-baba yurdlarına qayıdışını özünə böyük dərd edən Fransa, daha doğrusu, onun prezidenti Emmanuel Makron hər vəchlə Azərbaycanla münasibətləri korlamağa çalışır. Bütün Yelisey sarayı az qala ölkənin problemlərini bir kənara qoyaraq Ermənistanı və onun məsələlərini prioritet kimi götürüb. Afrikadakı keçmiş müstəmləkələrindən biabırcasına qovulan Fransa daxili və xarici problemlərinin məngənəsində məhv ə yuvarlana-yuvarlana Ermənistanın və erməni separatçılarının "qayğıları" ilə məşğuldur. Fransa hakimiyyətinin Azərbaycan əleyhinə apardığı yalan, böhtan kampaniyası nəinki ölkəmizdə, eləcə də hadisələrə düzgün yanaşan, reallıqları olduğu kimi qiymətləndirən və dəyər verən digər dövlətlərdə də böyük ikrah hissi doğurur.

Fransanın beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirərək Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı qərəzli və ədalətsiz addımlar atmasına indi Avropada da mənfi münasibətin şahidi oluruq. Amma bütün bunlardan fransızlar lazımi nəticə çıxarmırlar. Fransanın Azərbaycandakı səfiri Ann Buayonun məsləhətləşmələr üçün geri çağırılması da bu ölkənin uğursuz siyasətinin təsdiqidir.

Xatırladaq ki, Azərbaycan heç vaxt Fransa ilə münasibətlərin gərginləşməsində təşəbbüskar tərəf olmayıb. Əksinə, ikitərəfli əlaqələrdə qarşılıqlı etimadın möhkəmlənməsinə, münasibətlərin beynəlxalq hüquq normalarına uyğun, bir-birinin maraqlarına hörmət prinsipləri əsasında qurulmasına çalışıb. Amma Paris tamamilə fərqli mövqe sərgiləyir. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə də məsələyə bu fonda nəzər salaraq bildirir ki, məhz Azərbaycanın razılığı əsasında Fransanın 25 ilə yaxın müddətdə vasitəçilik roluna baxmayaraq, bu ölkənin 2020-ci il Vətən müharibəsindən sonra açıq-aşkar anti-Azərbaycan addımları hər kəsdə təəccüb doğurur: "Fransa tərəfinin Azərbaycanı birtərəfli hərəkətlərdə təqsirləndirməsinə baxmayaraq, ölkəmizin Parisə qarşı addımları və verdiyi rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub. Bu qarayaxma kampaniyasına baxmayaraq, tərəfimizdən hər zaman dialoq qapıları açıq saxlanılıb. Fransa xüsusilə son 3 il yarım müddətdə atdığı addımlarla Azərbaycanla Ermənistan arasında suverenlik və ərazi bütövlüyü əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyub və vəziyyətin gərginləşməsinə rəvac verib".

Fransanın BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə qərəzli layihələrin təşəbbüskarı olması bu ölkənin bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübuta yetirib. Fransa Senatının və Milli Assambleyasının destruktiv və təxribatçı addımları Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə xidmət edir, sülh gündəliyinin həyata keçirilməsinə, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına zərbə vurur. Məhz Fransada hakim partiyanın nümayəndələrinin təşəbbüsü ilə bu ölkənin parlamentində ölkəmizə qarşı çoxsaylı əsassız ittihamların, təhqir və təhdidlərin əks olunduğu, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı çıxan keçmiş qondarma rejimi tanıyan qərar və qətnamələr qəbul edilib. Bu müddət ərzində Fransa ərazisində mövcud azərbaycanofob mühitin nəticəsi olaraq radikal erməni qruplarının dəfələrlə Azərbaycanın Parisdəki səfirliyinə qarşı özündə vandalizm və terror elementlərini ehtiva edən cinayət əməlləri törətməsi və Fransa tərəfinin bunun qarşısını almaq üçün heç bir tədbir görməməsi onun erməni vandalizmini himayə etdiyini, Azərbaycana qarşı açıq diskriminasiyaya yol verdiyini bir daha sübut edir. Eləcə də ağlasığmaz addım kimi XIX əsr görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın büstünə qarşı vandallıq aktlarının törədilməsi, hökumət tərəfindən bunun qarşısının alınması üçün heç bir tədbirin görülməməsi rəsmi Parisin ölkəmiz əleyhinə kampaniyasının tərkib hissələridir. Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyini və evsahibliyini hədəfə alan, çağırışlar edən Fransanın Azərbaycanı birtərəfli addımlarda təqsirləndirməsi də tam əsassızdır. Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransanın addımlarının sülhə xidmət etmədiyi gün kimi aydındır. Cənubi Qafqaz regionunun təhlükəsizliyi üçün təhdid törətmiş, Azərbaycanın qətiyyətli səyləri ilə artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsinin 30 ilə yaxın bir müddətdə həll edilməməsinin əsas səbəblərindən biri də danışıqlar prosesində beynəlxalq vasitəçi rolunu oynamış bəzi dövlətlərin, xüsusən Fransanın Ermənistanın işğalına əsaslanan status-kvonu qoruyub saxlamağa çalışması olub.

Ümumiyyətlə, Fransanın Azərbaycanla bağlı atdığı bütün addımların mahiyyətinə, qəbul etdiyi qərarların məzmununa diqqət yetirdikdə, ölkəmizlə təzyiq və təhdid dili ilə danışmaq cəhdlərini görmək olar. Fransa Cənubi Qafqazda gedən proseslərə müdaxilə etməyə çalışır və Azərbaycanı bu məsələdə əsas maneə kimi görür. Bu bir daha təsdiq edir ki, Fransanın son illərdə həyata keçirdiyi xarici siyasət kursu bu ölkənin beynəlxalq münasibətlər sistemində nüfuzunun xeyli dərəcədə zəifləməsinə səbəb olub. Fransanın riyakarlığı, əslində, özünü məhv edir.

Görünən odur ki, rəsmi Parisin xarici siyasət strategiyası bir çox hallarda dünyada və regionda baş verən proseslərin yaratdığı reallıqları nəzərə almır. Paris bilməlidir ki, Azərbaycan tamamilə müstəqil siyasət yürüdür, başqa ölkələrin diktəsi ilə oturub-durmur. Azərbaycanın qəbul etdiyi qərarlar yalnız rəsmi Parisin qərəzli siyasi bəyanatlarına və qərarlarına cavab mahiyyətində olub. Fransa nəzərə almalıdır ki, Azərbaycanın xarici siyasətinin ən vacib prinsipi münasibətlərin qarşılıqlı hörmət, bir-birinin fundamental xarakterli maraqlarını nəzərə almaq şərtilə qurulmasıdır. Təəssüf ki, Fransa tamamilə fərqli yanaşma nümayiş etdirir. Reallıq odur ki, Fransanın xarici siyasəti Avropa dəyərlərinə hörməti və dövlətlərin daxili işinə qarışmamağı özündə ehtiva etməlidir. Parisin Azərbaycana qarşı qərəzli addımları heç bir nəticə vermir, verməyəcək də. Əksinə, mövcud siyasi vəziyyət Azərbaycanın xeyrinə formalaşır. Bunları nəzərə almasa, riyakarlıqlar burulğanında çabalayan Makronu və Fransanı daha böyük iflas gözləyir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*




# Azərbaycan BMT ilə əlaqələri və COP29 çərçivəsində əməkdaşlığı müzakirə edib

**Nyu Yorkda energetika naziri Pərviz Şahbazov ilə BMT Baş Assambleyasının prezidenti Denis Frensis arasında görüş olub. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla BMT əlaqələrinin inkişafı, "Dayanıqlı İnkişaf Məqsədləri"nin yerinə yetirilməsi və COP29 çərçivəsində əməkdaşlıq müzakirə edilib.**



Energetika naziri Pərviz Şahbazov neft-qaz resursları ilə regionda və dünyada enerji təchizatında mühüm rol oynayan Azərbaycanın hazırda "yaşıl enerji" keçidi ilə bağlı ciddi addımlar atdığını bildirib. COP29 zamanı ölkəmizin təcrübə və təşəbbüslərini beynəlxalq enerji ictimaiyyəti ilə bölüşməklə yanaşı, iqlim və "yaşıl enerji" öhdəliklərinin yerinə yetirilməsi üçün maliyyələşmə üzrə mühüm nəticələrin əldə edilməsinə fokuslandığı diqqətə çatdırılıb. "Yaşıl enerji" sahəsinə investisiyaların cəlbi, xüsusilə inkişaf etməkdə olan ölkələrin dəstəklənməsi və bu istiqamətdə beynəlxalq əməkdaşlığın təşviqi məqsədilə investisiya forumlarının keçiriləcəyi barədə məlumat verilib.

BMT Baş Assambleyasının ilk dəfə keçirilən Dayanıqlılıq Həftəsində Azərbaycanın təmsil olunmasına görə təşəkkürünü bildirən prezident Denis Frensis isə iqtisadiyyatın transformasiyası, dayanıqlı inkişaf və "yaşıl enerji" sahəsində ölkəmizin səylərini yüksək qiymətləndirib. Baş Assambleyanın prezidenti enerji keçidinin "Dayanıqlı İnkişaf Məqsədləri"nin bir çoxu üzrə irəliləyişlərə təkan verdiyini vurğulayaraq bu xüsusda beynəlxalq əməkdaşlığın vacibliyini bildirib. COP29-a evsahibliyinə görə Azərbaycanı təbrik edən Denis Frensis ölkəmizin zəngin təcrübəsinin bu tədbirin uğurla keçirilməsinə, qlobal iqlim və "yaşıl enerji" məqsədlərinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə ikitərəfli və COP çərçivəsində əməkdaşlığın digər aspektləri ətrafında da fikir mübadiləsi aparılıb.

# ABŞ-də IEA ilə enerji səmərəliliyi və COP29 üzrə müzakirələr aparılıb

**Energetika naziri Pərviz Şahbazov BMT Baş Assambleyasının tədbiri çərçivəsində Beynəlxalq Enerji Agentliyinin (IEA) icraçı direktorunun müavini Meri Burs Uorlik ilə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə enerji sahəsində və COP29 çərçivəsində əməkdaşlığa dair məsələlər müzakirə edilib. Azərbaycanda bərpaolunan enerji istehsal güclərinin yaradılması, şəbəkəyə inteqrasiyası, dənizdə külək enerjisindən istifadə və müxtəlif istiqamətlərdə "yaşıl enerji" dəhlizləri layihələrinin həyata keçirilməsi ilə bağlı yeniliklərdən bəhs olunub. Həmçinin "Bərpa Olunan Enerji və Enerji Səmərəliliyinə dair Qlobal Vəd" və "Qlobal Metan Vədi" təşəbbüslərinə qoşulan Azərbaycanın enerji səmərəliliyi, emissiyaların azaldılması üzrə gördüyü tədbirlər nəzərdən keçirilib. Bu istiqamətdə "EU4Energy" proqramı çərçivəsində IEA tərəfindən hazırlanmış "Azərbaycan üçün Enerji Səmərəliliyi üzrə Yol Xəritəsi"nin layihəsi müzakirə edilib və bu sənədin əhəmiyyəti öhdəliklərə töhfə aspektində dəyərləndirilib.

Söhbət zamanı COP29-un gündəliyindəki prioritetlər, o cümlədən yeni qlobal kollektiv maliyyə kəmiyyətlərinin qəbulu və Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin (NDC) yenilənməsi üzrə Azərbaycanın təşviqedici fəaliyyəti və IEA ilə bu çərçivədə intensiv əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Kökü ilə torpağa bağlı olan təbiət abidələrimiz

## "Yaşıl tarix"imiz və ekoloji mədəniyyətimiz sayılan bu abidələri qorumaq vətəndaşlıq borcumuzdur

**Məlum bir həqiqət var: insan təbiətin ayrılmaz parçasıdır, onları bir-birindən ayırmaq mümkün deyil. Çünki təbiət insan həyatında mühüm yer tutduğu kimi, insan da onunla nəfəs alır, yaşayır.**



Nə yazıq ki, zaman-zaman təbiət həyəcan təbili çalmaq məcburiyyətində də qalır. Səbəb insanların təbiətlə vəhşi rəftarının nəticəsi olan atmosferdə ozon dəliyinin əmələ gəlməsi, meşələrin qırılması, çirkli tullantıların axar sulara və dənizlərə axıdılması, zərərli qazların havaya buraxılması və nəhayətdə yaranan iqlim dəyişikliyidir.

Bütün bunlar gələcəkdə daha dəhşətli təbii fəlakətlərə, qaçılmaz faciələrə yol açan insan əməlləridir. İnsanın təbiətə və onun canlı aləminə, cansız sərvətlərinə qəddar münasibəti artıq pik nöqtəyə çatıb. Nəticədə ətraf aləm güclü dəyişikliyə məruz qalıb, bir çox heyvan və bitki növünün kökü kəsilib, bəziləri isə məhv olmaq təhlükəsi ilə üz-üzə gəldikləri üçün "Qırmızı kitab"a düşüblər. Bunlarsa o deməkdir ki, insan təbiətin qədrini bilmir və bu qədirbilməzliyin nə ilə nəticələnəcəyinin fərqinə varmır. Əks halda ona qənim kəsilməzdi.

Azərbaycan ərazisinin bitki örtüyü zənginliyi və nadirliyi ilə seçilir. Təbiət abidələrimiz yüz illər öncə yaranıb və bir çoxu bu günə gəlib çıxıb. Ölkə ərazisində 1500-1700 yaşı olan çinarlar var. Xocavənd rayonunun Şıx Dursun kəndində 2500 ilə qədər yaşı olduğu təxmin edilən çinar dünyanın ən yaşlı bu növ ağacıdır. Hündürlüyü 54, gövdəsinin diametri 27 metr olan ağac kənddəki "Çinar - müqəddəs yer" abidə kompleksinin ərazisindədir. Ağacın yaxınlığındakı Tenqri bulağı min illərdir bu abidə ilə qonşuluq edir.

Tovuzun Qovlar şəhər sakinlərinin "bal ağac", "beşbarmaq çinar", "mayak çinar" adlandırdıqları nəhəng çinar bu bölgənin ən yaşlı ağacı hesab olunur. Ağacın əhatə etdiyi 6 sot sahənin ətrafına hasar çəkilib və ora giriş qapısı qoyulub. Diametri 21, hündürlüyü 50 metrdən çox olan ağacı yaz-yay aylarında 30-40 kilometrlik məsafədən görmək mümkündür. Kənd əhalisinin dediyinə görə, çinarın 1000 ildən çox yaşı olduğunu elmi tədqiqatlar sübuta yetirib. Ağdaşın girəcəyində - Türyançayın sahilində də çox qoca bir çinar var. Hündürlüyü 50, diametri 15 metr olan bu çinarın 1490-cı ildə əkildiyi deyilir.

Çinar ağaclarına daha çox Gəncənin parklarında və küçələrində rast gəlmək olar. Həmin çinarlar böyüklüyünə görə Xan çinar adlandırılır. Şəhərdəki Şərq çinarları isə Gəncənin rəmzi hesab edilir. Əbəs yerə Gəncəyə "çinarlar şəhəri" deyilmir. Şərq çinarı Azərbaycanın "Qırmızı kitab"ına daxil edilib və dünyanın ən uzunömürlü ağaclarından sayılır. Ehtimal edilir ki, Gəncədə ilk çinar ağacını XIII əsrdə usta Bəndərin atası zərgər Dədə İmran çəkdiyi arxın yanında əkib. Hazırda şəhərdə 40 mindən çox çinar ağacı var. Onlardan təxminən 200-nün 150, 300-dən çoxunun isə 100-ə yaxın yaşı var. Gəncədə 300-400 yaşarası 4, 600 yaşında olan 5 çinar ağacı qeydə alınıb.

Təəssüf ki, vəhşi təbiətin qoynunda gözəllik yaradaraq abidələşən ağaclar bəzən insan vəhşiliyindən xilas ola bilməyiblər. 30 il erməni vandalları təbiətimizə sağalmaz yaralar vurublar. Qarabağın və Şərqi Zəngəzurun qənirsiz gözəlliyi mənfur qonşularımızın gözünü çıxarıb. 1988-ci ildə Topxana meşəsinə qənim kəsilən ermənilər onun Şuşanın nadir sərvəti olduğunu bilirdilər. Anlayırdılar ki, Topxana bizim üçün meşə, təbiət deyil, həm də tariximiz və mədəniyyətimizdir. Ona görə də Azərbaycana qarşı hazırladıqları məkrli planın baş tutması üçün Topxanadan başlamışdılar. Topxana 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın Şuşanı mühasirəyə aldığı zaman toplarını yerləşdirdiyi yerin adıdır. Ona görə də həmin ərazi "Topxana", ətrafdakı meşəlik isə "Topxana meşəsi" adlanır. Şuşanın sərvəti olan bu meşənin nadir heyvanat aləmi ilə yanaşı, zəngin bitki örtüyü də var. İşğal dövründə ekoloji terror nəticəsində Topxanada minlərlə qiymətli ağac kəsilmiş, təbiət abidəsi məhv edilmişdir. Qarabağa əbədi hakim olacağını düşünən ermənilərin bu gün torpaqlarımızdan izlərini təmizləyirik. Qarabağ və Şərqi Zəngəzurun təbiəti artıq rahat nəfəs alır.

Sovetlər dönəmində Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə bir sıra ağaclar təbiət abidələri siyahısına daxil edilmişdi. Qarabağda yetişən 152 ağacın adı da həmin siyahıda idi. Bunlar Şərq çinarı, dağdağan, palıd, saqqız ağacı və digərləridir. 1600-cən yaşı olan həmin ağacların 123-nü ermənilər işğal dövründə kəsərək, yandıraraq məhv etmişlər. Təkcə Ağdam rayonu ərazisindəki diametri 6 metrə qədər, hündürlüyü 40-50 metr olan 85 Şərq çinarından 82-sini kəsib gözlərinə soxmuşlar.

Xalq şairi Hüseyn Arif söhbətlərin birində bu fikirləri söyləyib: "İnsan o qədər qayğıkeş, mehriban olmalıdır ki, bülbül enib budaqdan çiynimizə qonsun. Oğrun baxışlı maral sərin çeşmə başında bizə qonaq olsun. Gəlin elə edək ki, ceyran düzləri keçəkeçə insanın arxasınca şəhərə gəlsin". Yəqin ki, "insan-təbiət münasibəti necə olmalıdır" sualına bundan dəqiq cavab vermək mümkün deyil.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# *Barbadosun Baş naziri:* "COP prezidentləri üçlüyünün yaradılmasını yüksək qiymətləndiririk"

**"Son bir neçə il ərzində iqlim dəyişikliklərinin qarşısının alınması sahəsində maliyyələşmə ilə bağlı görülən işlərin bu il də davam edəcəyinə ümid edirəm".**



Bu fikirləri COP29 nümayəndə heyətinin səfəri çərçivəsində aprelin 20-də Vaşinqtonda keçirilmiş "İqlim maliyyəsi üçün qlobal fəaliyyətin təmin edilməsi üzrə dialoq" mövzusunda tədbirdə iştirak edən Barbadosun Baş naziri Mia Mottli AZƏRTAC-ın ABŞ bürosuna açıqlamasında səsləndirib.

Onun sözlərinə görə, ötən illərdə bir sıra irəliləyişlər əldə edilib, "İtki və Zərər Fondu"nun yaradımasına nail olunub. "Maliyyələşmə hələ də əsas narahatlıqlardan biridir. Bu məsələ ilə bağlı maliyyə vəsaitinə ehtiyacımız var, amma bizə həm də itkilərin qarşısının alınması üçün maliyyə lazımdır. Buna görə də adaptasiya və mitiqasiya maliyyələşməsi çox vacibdir. Biz bilirik ki, bu, kifayət qədər çox pul tələb edir. Çoxsaylı həll yolları var. Artıq bir çox işə start verilib. İşlər bu il də davam etdiriləcək və biz üçlüyün (COP prezidentləri üçlüyü - red.) yaradılmasını yüksək qiymətləndiririk".

Qeyd edək ki, bu ilin əvvəlində COP28-in vasitəçiliyi ilə COP prezidentləri üçlüyü (COP 28, COP 29 və COP30) yaradılıb.

Vurğulayaq ki, Mia Mottli iqlim dəyişikliklərinin qarşısının alınması sahəsində maliyyələşməyə dair praktiki həll yollarını özündə birləşdirən Brictaun Gündəliyinin təşəbbüskarıdır.

# Beynəlxalq Valyuta Fondu COP29-a evsahibliyi çərçivəsində Azərbaycana dəstək göstərməyə hazırdır



**Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankının rəhbər orqanlarının illik yaz sessiyasında iştirak edən və Azərbaycanı BVF-də rəhbər olaraq təmsil edən maliyyə naziri Samir Şərifov, ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev, Mərkəzi Bankın sədri Taleh Kazımov, Milli Məclisin üzvü, COP29 üzrə BMT-nin İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai, Xarici İşlər Nazirliyi və Azərbaycanın ABŞ-dəki səfirliyinin nümayəndələrinin iştirakı ilə BVF-nin idarəedici direktoru Kristalina Georgieva və heyəti arasında görüş keçirilib.**

ABŞ-nin Azərbaycandakı səfirliyindən AZƏRTAC-ın ABŞ bürosuna verilən məlumata görə, görüş zamanı maliyyə naziri S.Şərifov yenidən BVF-nin idarəedici direktoru seçilməsi ilə bağlı xanım K.Georgiyevaya Azərbaycan Prezidenti İlham Əliyevin təbrik mesajlarını çatdırıb.

Qarşı tərəf təbrikə görə dərin minnətdarlığını ifadə edib, eyni zamanda Azərbaycana COP29-a evsahibliyi çərçivəsində dəstək göstərməyə hazır olduqlarını bildirib. Görüş zamanı həmçinin BVF ilə ümumi əlaqələr və COP29 çərçivəsində də mümkün əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# "İqlim dəyişikliyi ilə mübarizədə maliyyə məsələsinin Azərbaycanda geniş müzakirə olunmasına böyük maraq göstərilir"

**"İqlim dəyişikliyi ilə mübarizədə maliyyə məsələsi COP29-un əsas mövzularındandır. Ona görə də maliyyə institutları bu mövzunun noyabrda Azərbaycanda geniş müzakirə olunmasında çox maraqlıdır".**

Bu fikirləri Vaşinqtonda səfərdə olan COP29-un prezidenti Muxtar Babayev AZƏRTAC-ın ABŞ bürosuna açıqlamasında deyib.



Muxtar Babayevin sözlərinə görə, əvvəlcə çox ciddi danışıqlar prosesi getməlidir ki, donor ölkələr inkişafda olan və xüsusilə ada ölkələrinə, zəif inkişaf etmiş ölkələrə maliyyə yardımlarını mümkün qədər artırsınlar.

Bir neçə gün ərzində beynəlxalq maliyyə institutları, özəl şirkətlər və digər beynəlxalq təşkilatlarla intensiv görüşlər keçirdiyini vurğulayan COP29 prezidenti bildirib: "Biz öz tərəfimizdən mesajlarımızı və gözləntilərimizi onlara çatdırdıq. Onlar da COP29-da iştirakları barədə niyyətlərini söylədilər. İntensiv danışıqlar aparılır. Komandamızla birlikdə çalışırıq ki, bütün iştirakçılarla danışıqların bu müddət ərzində aparılmasını ən azından cədvəlləşdirək, onlarla məsələlərin müzakirəsini müddətlərə bölək. İnanıram ki, nəticədə yaxşı nailiyyətlər əldə edəcəyik".

# *Dünya Bankının nümayəndəsi:* "Azərbaycanın COP29-a evsahibliyi edəcəyindən məmnunuq"




"Azərbaycanın COP29-a evsahibliyi edəcəyindən məmnunuq". Bu fikirləri COP29 nümayəndə heyətinin səfəri çərçivəsində aprelin 20-də Vaşinqtonda keçirilmiş "İqlim maliyyəsi üçün qlobal fəaliyyətin təmin edilməsi üzrə dialoq" mövzusunda tədbirdə iştirak edən Dünya Bankının İqlim Dəyişikliyi Qrupunun qlobal direktoru Cennifer Sara AZƏRTAC-ın ABŞ bürosuna açıqlamasında deyib.

"Builki sammit iqlim maliyyələşməsinə həsr olunub və bu, çox vacib mövzudur. Biz Dünya Bankı olaraq digər inkişaf bankları ilə birlikdə ölkələrin iqlim məqsədlərini yerinə yetirə bilməsi üçün özəl, dövlət sektoru və digər mənbələrdən maliyyələşməni həyata keçirmək istiqamətində işləyirik".

# Mingəçevir Dövlət Universiteti Ali Təhsil Liderlik Forumunda təmsil olunub






**2024-cü ilin 16-18 aprel tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində 6-cı MENA Ali Təhsil Liderlik Forumu (The 6th MENA Higher Education Leadership Forum) keçirilib. "Əlaqələndirilmiş yeni nəsil universitetlərə doğru: addım atmaq, adaptə olunmaq və transformasiya zərurəti" mövzusuna həsr olunan forum digər beynəlxalq tərəfdaşlarla birlikdə BƏƏ-nin İnnovasiyaların Öyrənilməsi və Müvafiq Bilik Həlləri Mərkəzi (Center for Learning Innovations and Customized Knowledge Solutions - CLICKS) tərəfindən təşkil olunub. Forumda 35-dən artıq ölkədən 200-dən çox universitetin rektoru və ali təhsil mütəxəssisi, eləcə də bir sıra beynəlxalq təşkilatların nümayəndələri iştirak edib.**

Forumda təhsil və tədqiqat prosesində davamlılıq, tədris və öyrənmə prosesinin institusional inkişafı, ali təhsildə tələbə iştirakçılığının artırılması, universitetlərin transformasiyası, qlobal sülhün təmin olunmasında universitetlərin davamlı artan rolu, yaşıl və rəqəmsal keçidin ali təhsil üçün yaratdığı yeni çağırışlar, liderlik strategiyalarında innovasiyaların stimullaşdırılması məzmununun gücləndirilməsi, innovasiyaların sosial təsirləri, adaptiv tədris metodları, ali təhsilin cəmiyyətin ehtiyaclarına uyğunlaşdırılması, rəqəmsal erada yeni pedaqoji alətlər və digər mövzularda "dəyirmi masa"lar, panel müzakirələri, seminarlar və təqdimatlar keçirilib.

Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov forumda iştirak edib. Rektor forum çərçivəsində təşkil olunan "Ali təhsilin cəmiyyətin ehtiyaclarına uyğunlaşdırılması: dəyişən tələblərə adaptasiya" (Aligning Higher Education with Societal Needs: Adapting to Changing Demands) mövzusunda panel müzakirələrdə çıxış edib.

Azərbaycan, Kanada, Səudiyyə Ərəbistanı və BƏƏ-dən olan universitet rəhbərlərinin məruzəçi qismində iştirak etdikləri sözügedən paneldə ali təhsilin cəmiyyətin dəyişən ehtiyaclarına uyğunlaşdırılmasının əhəmiyyəti, həmin ehtiyacların ödənilməsini hədəfləyən praktiki strategiyaların hazırlanması və həyata keçirilməsi, universitet-cəmiyyət əməkdaşlığının vacib komponentləri, kurrikulum, proqram və tələbə dəstək xidmətlərinin qlobal təfəkkürlü mütəxəssis hazırlığına uyğunlaşdırılması təcrübələri müzakirə edilib.

Paneldə çıxış edən Ş.Bayramov ona ünvanlanan sualları həm Azərbaycandan olan ali təhsil müəssisəsinin rəhbəri, həm də Beynəlxalq Universitetlər Assosiasiyasının (IAU) idarə heyətinin üzvü qismində cavablandırıb, mövzu barədə fikirlərini təmsil etdiyi hər iki qurumun müvafiq təcrübəsi ilə əsaslandırıb.

Rektor IAU-nun missiyası və prioritetləri, universitet-cəmiyyət əməkdaşlığına dair dəyərləri və Ali təhsilin beynəlmiləlləşməsi üzrə 6-cı qlobal sorğusunun müvafiq nəticələrini diqqətə çatdırıb. Ş.Bayramov yeni dövrün universitetinə çevrilməyi hədəfləyən MDU-nun strateji məqsədlərindən və yerləşdiyi bölgənin ehtiyaclarını qarşılamaq sahəsində müvafiq təcrübəsindən bəhs edib. Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini, eləcə də ölkəmizin bu il COP29-a evsahibliyi edəcəyini xüsusi vurğulayan rektor MDU-nun adıçəkilən hər iki təşəbbüs çərçivəsində ölkə miqyasında həyata keçiriləcək tədbirlərə fəal töhfə verməyə çalışdığını qeyd edib. Bu baxımdan, cari ildə universitet-cəmiyyət əməkdaşlığında "yaşıl" və dayanıqlı əsaslı sosial fəaliyyətlərin üstünlük təşkil etdiyini bildirib.

Panel müzakirələri iştirakçılar tərəfindən maraqla qarşılanıb və onların təqdim etdikləri suallar cavablandırılıb.

Rektor forum çərivəsində keçirilən "Davamlılıq: tədqiqatdan təcrübəyə doğru" (Sustainability: from research to practice) mövzusunda seminara da qatılıb. Maraqlı və faydalı müzakirələrlə yadda qalan seminarda davamlılığın strateji planlaşdırmaya inteqrasiyası praktikasından, universitetin struktur bölmələri arasında əməkdaşlığın təşviqi strategiyalarından, sənaye tərəfdaşları ilə effektiv kommunikasiya alətlərindən, ali təhsildə davamlılığın uğurlu tətbiqi nümunələrindən və digər mövzulardan bəhs edilib.

Bununla yanaşı, Ş.Bayramov "Ali təhsildə tədrisin və öyrənmənin institusionallaşdırılması: akademik çevikliyin təşviqi" (Institutionalization of Teaching and Learning in Higher Education: Fostering Academic Agility) mövzusunda seminarda iştirak edib. Ali təhsil müəssisələrinin rəhbərləri üçün nəzərdə tutulmuş praktiki seminar tədris və öyrənmədə son tendensiyalar və onların ümumi ali təhsil ekosisteminə təsiri, tədris və öyrənmədə çevik təcrübələr, universitetlərin missiya və strateji məqsədlərinə uyğun olan effektiv tədris və öyrənmə strategiyalarının hazırlanması, tədris və təlim təşəbbüslərini dəstəkləyən zəruri təşkilati struktur və idarəetmə mexanizmləri, tədris və təlim mərkəzlərinin əsas performans göstəriciləri və digər məsələləri əhatə edib.

Ş.Bayramov forumda iştirak edən bir sıra universitet rektorları ilə Azərbaycanın evsahibliyi edəcəyi COP29 çərçivəsində birgə reallaşdırıla biləcək potensial fəaliyyətlər barədə faydalı müzakirələr aparıb, COP28-in keçirildiyi BƏƏ-ni təmsil edən müvafiq universitetlərin təcrübəsi ilə tanış olub.

Qeyd edək ki, 2013-cü ildən etibarən keçirilən MENA Ali Təhsil Liderlik Forumu dünyanın müxtəlif regionlarını təmsil edən universitet rəhbərləri, ali təhsil mütəxəssisləri, ali təhsil siyasətini formalaşdıran idarəediciləri və müvafiq beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirir. Forum ali təhsil üzrə qlobal, beynəlxalq və regional trendlərin və əsas çağırışların müzakirəsi üçün davamlı platforma hesab edilir. Uğurla başa çatan altıncı forum tələbələri gələcək əmək bazarına hazırlayan innovativ öyrənmə və tədris metodları, tələbə uğuruna və gələcək nəsil liderlərinin hazırlanmasına töhfə vermək, ömürboyu öyrənmə, cəmiyyətə və davamlı inkişaf məqsədlərinə nail olunmasına fayda vermək kimi istiqamətlərdə universitetlərin perspektiv fəaliyyətlərini dəstəkləmək məqsədi daşıyıb.

# Ticarət və Sənaye Palataları Birliyi Qadın Sahibkarlar Komitəsinin ikinci Baş Assambleya iclası keçirilib



**İstanbulda Türkiyə Ticarət və Sənaye Palataları Birliyi Qadın Sahibkarlar Komitəsinin ikinci Baş Assambleya iclası keçirilib. Tədbirdə 8 ölkəni təmsil edən qadın sahibkarlar iştirak ediblər.**

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasından AZƏRTAC-a bildirilib ki, Ticarət və Sənaye Palataları Birliyi Qadın Sahibkarlar Komitəsinin sədri Səkinə Babayeva iki il ərzində görülən işlərin hesabatını təqdim edib.

S.Babayeva çıxışında bildirib ki, 2021-ci ilin noyabr ayından etibarən türk dünyası qadın sahibkarları ilə keçirilən ümumi görüşlərin sayı 120-ni ötüb. Bu dövr ərzində türkdilli ölkələrə 30-dan çox səfər təşkil olunub və 8 ölkədə 60-a yaxın layihə, tədbirlər həyata keçirilib.

Ümumi yığıncaqda Türkiyə təmsilçisi Hatice Kalın, Qazaxıstandan Lazzat R. Kerimkulovna, Qırğızıstandan Aijan Chynybaeva, Özbəkistandan Nodira N. Shotursunova, Türkmənistandan Gulbahar İlliyeva, Kipr Türk Respublikasından isə Yaprak Özyalçının məruzələri dinlənilib.

Ümumi yığıncağın qərarına əsasən isə Türkmənistan təmsilçisi rəsmi olaraq Qadın Sahibkarlar Komitəsinin tərkibinə daxil olub və bundan sonrakı dövr üçün bütün ölkələrin nümayəndələrinin öz dillərində danışıqlar aparmasının vacibliyi qeyd olunub.

Daha sonra 2021-ci ildə komitənin qəbul olunmuş əsasnaməsinə dair qərarlara istinadən Qadın Sahibkarlar Komitəsinin sədrliyi Azərbaycan nümayəndəsi Səkinə Babayevadan Qazaxıstan nümayəndəsi Ləzzət Kerimkulovnaya təhvil verilib.

# Aerokosmik Modelçilik Festivalının qalibləri mükafatlandırılıb



Bu gün Bakıda "İnnoland" İnnovasiya Mərkəzində "Yeni Texnologiyaların İnkişafına Dəstək" İctimai Birliyinin (İB) təşəbbüsü ilə keçirilmiş Aerokosmik Modelçilik Festivalının qalibləri mükafatlandırılıb. AZƏRTAC xəbər verir ki, tədbirdə öncə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

"Yeni Texnologiyaların İnkişafına Dəstək" İB-nin sədri Ceyhun Xəlilov çıxışında bildirib ki, Bakı şəhəri, Xəzər rayonunun Hövsan qəsəbəsində yerləşən aviamodellərin uçuş meydançasında "Yeni üfüqlərə doğru" şüarı ilə ikinci dəfə keçirilən Aerokosmik Modelçilik Festivalı böyük marağa səbəb olub. İki turdan ibarət olan və ümumilikdə 5 növ üzrə keçirilmiş festival çərçivəsində müxtəlif kateqoriyalar üzrə yarışlar, aviaşou, raket modelləri, kvadrokopterlər və təyyarə modelləri nümayiş olunub. Aerokosmik Modelçilik Festivalı iştirakçılara texniki idman növü kimi aerodinamika, aerokosmik mühəndislik, elektronika və mexanika sahəsində biliklərini praktik olaraq təkmilləşdirmək üçün şərait yaradıb.

C.Xəlilov diqqətə çatdırıb ki, festivalın əsas məqsədi və fəaliyyət istiqaməti, Azərbaycanda raket və peyk modelçiliyi idmanının kütləviləşməsinə və inkişafına kömək etmək, innovativ gənclərin hərtərəfli inkişafında və sağlam həyat tərzinin formalaşmasında bu texniki idman növünün rolunu artırmaqdan ibarətdir.

"Yüksək texnologiyalara əsaslanan raket və peyk modelçiliyi texniki idman növü təmiz havada intellektual aktivliyi və fiziki fəaliyyəti özündə birləşdirir. Yarışlar həm fərdi, həm də komanda halında olmaqla, uçuşun hündürlüyü və müddəti, eniş dəqiqliyi üzrə keçirilir. Hazır modellərin aidiyyəti yarış səviyyəsi üzrə raketin və ya peykin detallılıq dərəcəsi və uçuşun reallığı qiymətləndirilir", - deyə Ceyhun Xəlilov vurğulayıb.

Sonda yarışın qalibləri mükafatlandırılıb. Mükafatlandırmaya uyğun olaraq 5 nəfər - I yerə, 5 nəfər - II yerə, 5 nəfər - III yerə və 5 nəfər - əlavə nominantlar (təyyarə, helikopter, kvadrakopter uçuş təlimi üzrə) üzrə sertifikata layiq görülüb.

# Parisdə İran konsulluğunu partlatmaqla hədələyən şəxs saxlanılıb

**Parisdə yaşlı bir kişi saxta qumbaralarla İran konsulluğuna gələrək onları partlatmaqla hədələyib. Xüsusi təyinatlılarla danışıqlardan sonra o, təslim olub və saxlanılıb.**

Yerli KİV-in məlumatına görə, o, 2023-cü ilin sentyabrında konsulluğu yandırmağa cəhd edib. O vaxt hücumunu İranda qadınların sıxışdırılması ilə izah edən kişi bu dəfə "qardaşının qisasını almaq" istədiyini bildirib.

İlkin məlumata görə, saxlanılan şəxs İrandan olan 1963-cü il təvəllüdlü kişidir. Yerli vaxtla saat 11:00 radələrində o, Parisin 16-cı dairəsində Fresnel küçəsində yerləşən konsulluğa girib. Onun üzərində butafor qumbaralar və taktiki jilet olub.

"Europe 1" radiostansiyasının xəbərinə görə, ilkin olaraq, həmin şəxs konsulluq otağına daxil olub. Konsulluğun əməkdaşları polis çağırıb. Xüsusi təyinatlılar və yanğınsöndürənlər də daxil olmaqla "böyük qüvvə" tezliklə hadisə yerinə gəlib. Ərazi mühasirəyə alınıb və qonşuluqdakı iki metro xətti bağlanıb. Polis sosial şəbəkələrdə Fresnel küçəsində işlərini davam etdirdiklərini yazıb və insanlardan ərazidən uzaq durmağı xahiş edib.

Nəticədə iranlı xüsusi təyinatlılarla danışıqlardan sonra təslim olub və saxlanılıb. Kişi "qardaşının qisasını almaq" istədiyini söyləyib. Onun nəyi nəzərdə tutduğu hələ müəyyən edilməyib.

Həbsdən sonra məlum olub ki, həmin şəxs artıq bir dəfə saxlanılıb: ötən ilin sentyabrında o, İran konsulluğunu yandırmağa cəhd edib.




Həmin vaxt media onun adının Nikola Xorsand olduğunu, Tehranda doğulduğunu və Fransa vətəndaşlığını daşıdığını, əvvəllər protezçi-ortoped kimi çalışdığını bildirib.

2023-cü ilin payızında o, konsulluğun darvazasının qarşısında təkəri yandıraraq, cüzi ziyan vurub. Ertəsi gün Xorsand tapılaraq saxlanılıb.

O, məhkəmədə bildirib: "Mən bu hərəkəti İran qadınları naminə təmiz vicdanla etdim. Qadın, həyat, azadlıq".

İranlı əlavə edib ki, məqsədi bu qanunsuz hərəkəti törətməklə ölkədə yaşayan iranlı kişi və qadınlarla, xüsusən də qadınlarla birlikdə olduğunu nümayiş etdirmək olub.

Xorsand vətənində "qadın və qızların həbs edilməsi, döyülməsi və zorlanması" faktlarına daha dözə bilməyəcəyini deyib və Parisdəki İran konsulluğunu "diktatura mərkəzi" adlandırıb.

Jurnalistlər qeyd edirlər ki, o, İranda qadın hüquqlarının müdafiəsi üçün Fransada keçirilən dinc etiraz nümayişlərində müntəzəm iştirak edir.

Xorsand başqasının əmlakına insanlar üçün təhlükəli şəkildə ziyan vurmaqda ittiham olunub. Məhkəmə onu 2023-cü ilin oktyabrında iki il sınaq müddəti olmaqla səkkiz aylıq şərti cəzaya məhkum edib. Bundan əlavə, ona beş il müddətinə Parisin 16-cı dairəsində görünmək və silah saxlamaq qadağan edilib. İranlı ortoped həmçinin təzminat ödəməyə məcbur edilib.

***Rizvan HİLALOĞLU, "Azərbaycan"***




# Beynəlxalq Valyuta Fondu ölkəmizlə bağlı nikbin proqnoz verib

## "Azərbaycanda iqtisadi artım göstəriciləri əvvəlki illərə nisbətən yüksək olacaq"

**Xəbər verildiyi kimi, Beynəlxalq Valyuta Fondunun (IMF) investisiya təşviqi üzrə hesabatında Azərbaycan "Top-7" sırasına daxil edilib. IMF-nin aprel hesabatında isə bu il Azərbaycanda iqtisadi artım göstəricilərinin əvvəlki illərlə müqayisədə yüksək olacağı bildirilib.**




Beynəlxalq Valyuta Fondu tərəfindən 2024-cü il və növbəti illər üzrə xam neft təklifinin və qiymətinin azalmasının proqnozlaşdırılması fonunda Azərbaycanın iqtisadi artım göstəricilərinin əvvəlki illərlə müqayisədə yüksək olacağı təxmin edilməsi qeyri-neft-qaz sektorundan müsbət gözləntilərdən qaynaqlana bilər. Bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) şöbə müdiri Nicat Hacızadə IMF-nin "World Economic Outlook" hesabatının aprel sayında 2024-cü il üçün Azərbaycanda iqtisadi artımla bağlı proqnozunu şərh edərkən demişdir. Azərbaycanın neft-qaz və qeyri-neft-qaz sektoru üzrə əsas xarici ticarət tərəfdaşlarında böyümə proqnozunun yüksək olmasının ölkəmizin iqtisadiyyatına müsbət təsir edəcəyini deyən müəllifin qənaətinə görə, 2023-cü ildə təbii qaz ixracının yönəldiyi bir sıra Avropa ölkələrində ümumi daxili məhsulun iki tələb komponentinin artımına verilən proqnozlara əsasən, 2024-cü ildə də davam edəcəyi gözlənilir: "Yunanıstan, Serbiya, Bolqarıstan və İtaliyada ev təsərrüfatlarının istehlakının artımı ilə əlaqədar müsbət gözləntilər təbii qaz ixracının artımını dəstəkləyəcək. Həmçinin Türkiyənin 3,1, Rusiya Federasiyasının 3,1, Gürcüstanın 5,7, Qazaxıstanın 3,1 faiz böyüməsi Azərbaycanın qeyri-neft-qaz ixracı üçün əlavə üstünlükdür. Habelə sözügedən ölkələrdən Azərbaycana birbaşa xarici investisiyaların artması gözlənilir".

Beynəlxalq Valyuta Fondunun hesabatına əsasən, 2024-cü il üzrə Azərbaycanda iqtisadi artımın proqnozlaşdırılan 2,8 faizi Yaxın Şərq və Mərkəzi Asiya iqtisadiyyatlarının orta böyümə göstəricisinə bərabərdir. N.Hacızadə həmçinin hesabatda ölkəmiz üzrə inflyasiya göstəricisinin 2023-cü illə müqayisədə azalaraq 3,5 faizə düşəcəyinin proqnozlaşdırıldığından danışmışdır. Müəllif eyni zamanda bildirmişdir: "Cari hesablar balansının ÜDM-də payı 8,5 faiz təşkil edir ki, bu da Mərkəzi Asiya və Yaxın Şərq ölkələrinin iqtisadiyyatları üzrə orta göstəricidən 6,7 faiz bəndi çoxdur. IMF tərəfindən 2024-cü ildə verilən proqnoza adekvat olaraq Azərbaycan iqtisadiyyatı ilin birinci rübündə 4, qeyri-neft-qaz sektoru üzrə isə 6,7 faiz böyümə performansı göstərib. Bu ilin yanvar-fevral ayılarında Azərbaycanın ixrac gəlirləri üzrə şaxələndirmə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz bəndi yaxşılaşıb".

İİTKM-nin şöbə müdiri vurğulamışdır ki, hazırda Azərbaycanın xarici ticarət balansında müşahidə olunan əlverişli konyuktur neft-qaz qiymətlərinin yüksək olması ilə əlaqədardır. N.Hacızadə həmçinin qeyd etmişdir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında əsas kapitala investisiya qoyuluşlarının yüksəlməsi, kredit qoyuluşlarının yüksək artımı, fevral ayında Mərkəzi Bankın valyuta rezervlərinin ötən ilin eyni dövrü ilə müqayisədə 28,8 faiz artımı, aylıq və illik inflyasiyanın hədəf daxilində hərəkəti və birrəqəmli olması, həmçinin əkiz balanslarda müşahidə edilən profisit iqtisadi artımı birbaşa və dolayı formada dəstəkləyir.

IMF-nin qlobal iqtisadiyyatla bağlı proqnozlarını da şərh edən şöbə müdiri diqqətə çatdırmışdır ki, 2024-cü ilin aprel nəşrindəki ənənəvi hesabatda artım, ticarət, inflyasiya, məşğulluq, cari hesablar balansı və s. istiqamətləri əhatə edir: "Belə ki, ötən il qlobal iqtisadi artımda durğunluq müşahidə olunmasına baxmayaraq, IMF 2024-cü il üçün müsbət proqnozlar verib. Hesabata əsasən, cari ilin sonuna kimi qlobal iqtisadi artım 3,2, 2025-ci ildə 3,2, 2026-cı ildə isə 3,1 faiz proqnozlaşdırılır. İnkişaf etmiş ölkələr üçün nəzərdə tutulan proqnoz 1,7 faiz olması fonunda inkişaf etməkdə olan ölkələr üzrə artım proqnozu 3,9 faiz təxmin edilir. Bundan əlavə, inkişaf etməkdə olan Asiya ölkələrinin artım proqnozu 5 faizə yaxınlaşarkən eyni statusa malik Avropa ölkələrində bu rəqəm 3 faiz altında təxmin edilir. IMF-nin analitik qrupu tərəfindən proqnozlaşdırılan digər göstəricilər isə enerji və qeyri-enerji resurslarından əldə edilən gəlirlərlə əlaqədardır. Belə ki, enerji resurslarının 2024-cü ildə yaradacağı əlavə dəyər qeyri-enerji ilə müqayisədə 0,9 faiz bənd daha aşağıdır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

**Sumqayıt - 75**



# Sumqayıtın bulvarı bir möcüzədir

## Bir neçə ölkədə onun oxşarı yaradılır

**1949-cu ildə Azərbaycanın xəritəsinə yeni bir şəhərin adı yazıldı. Elə bir şəhərin ki, buraya nəinki respublikanın, hətta keçmiş ittifaqın hər tərəfindən qurub-yaradan insanlar axışdı. Sumqayıt həmin insanların zəhməti ilə böyüdü, şan-şöhrət tapdı.**

Sumqayıtın başqa bir adı da var - gənclik şəhəri. Yəqin ki, qurucularının çoxunun cavanlar olduğu üçün veriblər bu adı. Gənclik şəhəri yaşa dolsa da, onun bu statusu dəyişmir, baxmayaraq ki, boy atdığından, sağa-sola doğru genişləndiyindən və artıq az qala paytaxtımızla qol-boyun olduğundan ona çox ad yaraşır.

Vaxtilə boz çöldə, çox hissəsi bataqlıq olan bir ərazidə ilk binaları tikilən, ilk müəssisələri işə salınan Sumqayıt bu gün müstəqil Azərbaycanın ən böyük və ən abad şəhərlərindən biridir. Ölkəmizin inkişaf salnaməsində bu şəhərin sanballı payı var. Ümumiyyətlə, Cənubi Qafqazın iri sənaye şəhərlərindən olan Sumqayıtın hədəfləri gələcəyə hesablanıb. Şəhərdə müxtəlif təyinatlı sosial-iqtisadi layihələr gerçəkləşdirilir və həmin layihələrin çoxu iri sərmayələrlə ərsəyə gəlir. Belə layihələrdən biri də Sumqayıt bulvarıdır.

Xəzər sahilində belə bir bulvarın salınması ölkəmizdə həyata keçirilən sosial layihələrin bariz nümunəsidir. Bu kompleks Sumqayıt sakinlərinə böyük zövq-səfa bəxş etməklə yanaşı, şəhərə turist axınını da artırıb. Hazırda bulvar yaxınlığında hündürmərtəbəli binaların tikintisi aparılır. Eyni zamanda hotel və istirahət mərkəzlərinin inşası başa çatmaq üzrədir. Bu ilin sonuna onların təhvil veriləcəyi nəzərdə tutulur.

Xatırladaq ki, Sumqayıt bulvarının açılışı 2016-cı il sentyabrın 27-də Prezident İlham Əliyevin iştirakı ilə olub. Dövlətimizin başçısı bu gözəl məkanı bir "möcüzə" adlandırıb. Doğrudan da, Sumqayıt bulvarı onu görənlərə bir möcüzə təsiri bağışlayır. Qumlu sahildə müasir üslubda salınan bulvar dəniz səviyyəsindən 2,5 metr yüksəklikdədir. Buradakı istinad divarlarının uzunluğu 4,8 kilometr, hündürlüyü 1,5 metrdir. Bulvarda 60 hektar ərazidə yaşıllıq zolağı salınıb, 200 mindən çox ağac və dekorativ kol, 2 milyondan artıq gül və çiçək əkilib. Vaxtaşırı keçirilən ağacəkmə kampaniyalarında yeni zolaqlar salınır. Təkcə bu ilin əvvəlindən bəri "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində bulvarda 20 mindən artıq zeytun ağacı, on minlərlə təbii gül kolları əkilib. Bulvarın ərazisində müxtəlif yerlərdə 50 kölgəlik yaradılıb, oturacaqlar qoyulub. Həmin ərazilərdə quraşdırılan 5 rəngli fontan öz gözəllikləri ilə şəhərin sakinlərini və qonaqlarını valeh edir.



Hazırda Sumqayıt bulvarının genişləndirilməsini nəzərdə tutan yeni layihə üzərində iş aparılır. Bu isə o deməkdir ki, yaxın gələcəkdə bulvarda yeni salınan obyektlərin, istirahət ocaqlarının şahidi olacağıq.



Bulvara səyahətə çıxanların maraqla qarşıladıqları obyektlərdən biri də buradakı Bayraq muzeyidir. Günəşli havalarda əməkdaşlar türkün müzəffər bayraqlarını açıq havaya çıxarır. Bayraqlar musiqi sədaları altında bulvarın daxilində gəzdirilir. Muzey əməkdaşları bəzi yerlərdə dayanır və bayraqlar barədə geniş məlumat verirlər.

Xarici turistlərə Sumqayıtın simvolu olan göyərçin eksponat təqdim edilir. Onlar üçün şagirdlərin ifasında ölkəmiz, ordumuz, qəhrəmanlar haqqında şeirlər səsləndirilir.

Bayraq muzeyi ilə üzbəüz yerləşən Muğam mərkəzinin kollektivi də turistlərə xüsusi proqram təqdim edir. Bulvarın bir neçə yerində quraşdırılmış səsgücləndiricilərlə ətrafa yayılan xalq musiqisi, Sumqayıtın musiqi ustalarının vaxtaşırı təşkil olunan konsertləri bulvara gələnlərin əhvalına xoş ovqat qatır. Xarici ölkələrdən şəhərə təşrif buyuran turistlər isə mikrofon önündə Sumqayıtla bağlı təəssüratlarını bölüşür və bundan çox məmnun olduqlarını bildirirlər. Bu, heç bir fotoya sığmayan, sosial şəbəkədə heç bir paylaşımla ifadə edilə bilməyən canlı təəssüratdır.

Bulvarda həyata keçirilən layihələrdən biri də sərgilərlə bağlıdır. Xüsusən kitab sərgilərini qeyd etmək istərdik. Xarici qonaqlar Azərbaycanın, eləcə də dünyanın tanınmış yazıçılarının kitablarını həvəslə alırlar. Turist üçün öz xalqının yazıçısının əsərini Azərbaycan dilində görmək maraqlı olur. Daha bir sərgi mətbəxlə bağlıdır. Hər həftənin şənbə günü bu sərgiyə mətbəximizin ləziz nemətləri çıxarılır. Yaşıllıqlar qoynunda ləzzətli təamlarımızı dadmağı avropalılar çox sevir.

Turistlərin sayına gəlincə, təxmini hesablamaya görə, ötən müddətdə bulvarı milyondan çox insan ziyarət edib. Rusiya, Belarus, Almaniya, Cənubi Koreya, Yaponiya, ərəb ölkələrindən və digər yerlərdən gələn turistlər buradan xoş təəssüratla qayıdırlar.

Bulvarın işıqlandırılması da yüksək səviyyədədir. Ərazinin hər tərəfi "ağıllı fanar"larla işıqlandırılır. 3, 6 və 9 metrlik işıq dirəkləri qəlboxşayan mənzərə yaradır. Üstəlik uşaqların istirahəti də yaddan çıxmayıb. İki yerdə quraşdırılan oyun manejləri uşaqların sevimli məkanıdır. Açıq səma altında quraşdırılan səhnə isə bayram tədbirlərinin məkanıdır. Yeni il, Novruz, Ramazan və digər bayramlar burada geniş insan kütləsinin iştirakı ilə keçirilir. Respublikanın mədəniyyət xadimlərinin konsert proqramları xüsusi maraqla qarşılanır.

Sumqayıt bulvarı həm də yeni iş yerləri deməkdir. İndi burada 240 nəfər daimi işlə təmin edilib. Mühafizə sistemi 9 post üzrə şaxələnib. Ərazi növbəli şəkildə 24 saat ərzində mühafizə olunur.

Sumqayıt bulvarı dünyada keçirilən beynəlxalq müsabiqələrdə, konfranslarda layiqincə təmsil edilir. 2017-ci ildə keçirilən beynəlxalq sərgidə birinci mükafata layiq görülüb. Həmin sərgidə onlarca Avropa ölkəsinin nümayəndələrinə məsləhət görülüb ki, müasirliyi və yenilikçiliyi öyrənmək istəyənlər Sumqayıta yollansınlar. Elə buna görədir ki, hazırda bir neçə ölkədə Sumqayıt bulvarının oxşarını yaratmaq qərara alınıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# ARDNF-nin gəlir və xərcləri açıqlanıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatına görə, 2024-cü il mart ayının 31-nə fondun aktivləri 2024-cü ilin əvvəlinə (56 069,7 milyon dollar) nisbətən 2,3 faiz artaraq 57 milyard 372,8 milyon dollar olub.**

Cari ilin yanvar-mart ayları ərzində ARDNF-nin büdcə gəlirləri 5 milyard 268,3 milyon, büdcə xərcləri isə 3 milyard 205,4 milyon manat təşkil edib.

Həmin dövrdə ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 3 milyard 421,4 milyon, o cümlədən mənfəət neftinin və qazın satışından 2 milyard 645,5 milyon, bonus ödənişləri 775,9 milyon, tranzit gəlirləri 0,3 min manat olub.

Fondun aktivlərinin idarə olunmasından əldə edilən gəlir 1 milyard 846,9 milyon manata çatıb.

Hesabat dövrü ərzində ARDNF-nin 2024-cü il büdcəsinin icrası çərçivəsində 3 milyard 195,3 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. 2024-cü ilin ilk rübündə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 1,0 milyon, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" nın maliyyələşməsinə isə 3,2 milyon manat yönəldilmişdir. Sözügedən dövrdə ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 5,9 milyon manat olmuşdur.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri isə hesabat dövrü üzrə 151,7 milyon manat təşkil etmişdir.

İlin əvvəlində inflyasiyanın səngiməsi ilə mərkəzi bankların faiz dərəcələrini azaldacağı gözləntiləri yaranmış və nəticədə dövlət istiqrazlarının gəlirlilik dərəcələrində müəyyən enmələr, eyni zamanda səhm bazarlarında müsbət dinamika müşahidə olunmuşdur. Buna baxmayaraq, rüb ərzində inflyasiyanın aşağı düşməsi tempində zəifləmənin izlənilməsi və digər makro-iqtisadi göstəricilər fonunda dövlət istiqrazlarının gəlirlilik dərəcələri rübün sonuna doğru yenidən yüksəlmişdir. Bu amillər inflyasiyanın gözləniləndən daha uzun müddətdə hədəf dəyərinə qayıtması gözləntilərini önə çəkdiyi üçün maliyyə akitvlərinin dəyəri ilə bağlı qeyri-müəyyənlik hələ də davam edir.

# Ağdərə-Ağdam avtomobil yolunun da inşasına başlanıldı

**Azərbaycan Respublikası Prezidentinin tapşırıq və sərəncamları əsasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi işğaldan azad olunmuş ərazilərdə yol infrastrukturu layihələrinin icrasını davam etdirir. Bu layihələrdən daha birinin - Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb.**

Suqovuşan-Kəlbəcər avtomobil yolunun 9-cu km-dən ayrılan və 33,5 km uzunluğa malik Ağdərə-Ağdam avtomobil yolunun hərəkət hissəsinin eni 9 metrdir. Torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa olunur.

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir.

Yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır. Bundan başqa, layihə üzrə Ağdam ərazisində Xaçınçay çayı üzərində 5 aşırımlı körpü də inşa edilir. Hazırda körpü dayaqlarının tikintisi icra olunur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Zəmilər üzə gülür

## Salyanlı fermer Yusif Teymurov hər hektardan 60 sentner buğda götürəcəyinə əmindir



**Bu il kənd təsərrüfatı üçün uğurlu gəlir. Yanvar ayında Muğana iki dəfə yağan qar əkinlərin muradını verdi. Zəmilər bir neçə gün "qar yorğanı" altında özünü küləkdən, şaxtadan qorudu. Sonra da əriyən qar torpaqda kifayət qədər nəmlik yaratdı. Novruz bayramından bir neçə gün əvvəl və sonra yağan yaz yağışları da bitkilər üçün çox faydalı oldu. Yazın ılıq nəfəsi ilə taxıl zəmiləri, çöllər, düzlər, çəmənlər yaşıl dona büründü.**

Təbiətin belə bir vaxtında əkinçi də qollarını çırmayıb işə ürəklə girişib. Qışın qarlı, yazın yağmurlu keçməsi ona əlavə həvəs, stimul verib. Nəzərdə tutduğu işləri, ürəyindəki arzuları reallaşdırmaq, elin xeyir-şərində yaxından iştirak etmək, bir sözlə, dost-tanışdan geri qalmamaq üçün gün çıxandan qaş qaralanacan əkininin üstündədir.

Öz işini yaxşı bilən fermerlərdən biri də Salyan rayonunun Arbatan kəndinin sakini Yusif Teymurovdur. O, qəlbən torpağa bağlı adamdır. Ağlı kəsəndən valideynlərinin yanında - əkin-biçinin içində olub, pambıq yığımında iştirak edib. Bunlar Yusifin ilk əmək təcrübəsi idi. 2004-cü ildə orta təhsilini bitirdikdən sonra ali məktəbdə - Rusiya Federasiyası Beynəlxalq Universitetinin Dağıstan filialında qiyabi təhsil almağa başlayıb. Yusif ikinci kursda oxuyarkən ixtisasını dəyişmək qərarına gəlib. Moskvadakı Timiryazev Akademiyasının aqronomluq şöbəsinə köçürülüb və oranı qiyabi yolla bitirib. Eyni zamanda "MKT-İk" Salyan filialında aqronom kimi fəaliyyət göstərib, pay torpağında, eləcə də icarəyə götürdüyü sahələrdə fermer kimi əkin-biçinlə məşğul olub.

Yusif ali məktəbdə aldığı biliklər, gündəlik işində qazandığı təcrübə hesabına bacarıqlı, işgüzar aqronom kimi püxtələşib. Torpağın "dilini" öyrənib, onunla necə davranmağı mənimsəyib. O, bu gün də toxum torpağa düşdüyü gündən məhsul yetişib yığılanacan hansı aqrotexniki tədbirləri nə vaxt görməyi ciddi şəkildə nəzarətdə saxlayır, qeydiyyatlar aparır. Aldığı nəticələri illər üzrə tutuşdurub müqayisə edir. Belə bir iş üsulu sayəsində yüksək məhsul götürməyə nail olur. Keçən il əkdiyi 8 hektar buğda sahəsinin hər hektarından 58 sentner məhsul götürüb. Cari ilin məhsulu üçün isə 7 hektara "Qobustan" növündən olan buğda toxumu səpib.

Y.Teymurov bu ilin kənd təsərrüfatı üçün uğurlu olacağından danışaraq bildirdi ki, yanvar və mart aylarının yağıntılı keçməsi işlərini xeyli yüngülləşdirmişdir: "Suvarmanın birini ixtisara salmalı olduq. Bir dəfə çıxış suyu aparmışıq. Təxminən 10 gündən sonra dən suyu verəcəyik. Çalışacağam ki, bu tədbiri də vaxtında həyata keçirim. Cünki zəmilər suvarılanda sünbüllər yaxşı böyüyür, dənlər daha iri olur, bu da öz növbəsində hər hektarın məhsuldarlığını artırır".

Qeyd edək ki, hazırda rayon üzrə 13 min 927 hektar taxıl sahəsi var. Onun 5 min 695 hektarı buğda, 8 min 232 hektarı arpadır. Əkinlərin 95 faizinə ammofos, karbamid və azot gübrələri verilmişdir. Suvarma vaxtında və keyfiyyətlə görülmüşdür. İnşallah, nəticəsi də yaxşı olar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



## Azərbaycan tarixi günlərini yaşayır

**İzahedilməz duyğudur. Daha dəqiqi, nə qədər danışsan da, yazsan da, Vətən sevgisini tam ifadə edə bilməzsən. Bu hissi yalnız yaşamaq olar...**

1990-cı illərdə kəndlərimizin, qəsəbələrimizin, rayonlarımızın, şəhərlərimizin işğal olunması xəbərini aldıqca yumruqlarımız düyünlənir, qəlbimizə qüssə, hüzn çökürdü. Birinci Qarabağ müharibəsində Azərbaycanın igid övladları Vətən torpaqlarının azadlığı uğrunda şücaətlə döyüşürdülər. Ancaq müstəqil respublikamızın ordusu hələ formalaşmamışdı. Ermənistan xarici havadarlarından aldığı güclə ərazilərimizin iyirmi faizini zəbt edə bildi. Bir milyona yaxın azərbaycanlı dədə-baba yurdundan, isti ocağından canını götürüb qaçmalı oldu. Yurdlarımız təcavüzkar düşmən tərəfindən yağmalandı, abad ellərimiz xarabalıqlara çevrildi...

İşğal müddəti çox uzandı. Əslində, zaman baxımından bunu düzgün ifadə etmək mümkün deyil. "Vətən" deyə-deyə dirigözlü ölənlər oldu. Bəziləri cismən, əksəriyyəti isə mənən... İllər bir-birini əvəz etdi, fəsillər dəyişdi. Ermənistanın işğalı altında olan ərazilərimizdən də payızlar, qışlar ötüb keçdi. O yerlərə yağan yağışlar, qarlar qəlbimizi üşütdü. Təbiətin qanunudur, fəsillər bir-birini əvəz edir. Yəni payızın, qışın ardınca da hər il bahar, yay gəlir. Amma o torpaqlarda bizsiz parlayan Günəş, açan çiçəklər könlümüzdə bağlamış buzları əridə, ruhumuzu isidə bilmədi. 2016-cı ilədək aylar, illər belə keçdi...

Atəşkəs haqqında saziş 1994-cü il mayın 12-də imzalansa da, Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini intensiv olaraq atəşə tuturdu. İşğalçı ölkənin ordusunun bölmələri müxtəlif istiqamətlərdən iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini hər gün mütəmadi olaraq pozurdular.

Qoşunların təmas xəttində atəşkəs rejimindən sonra baş vermiş ən böyük hərbi qarşıdurma, ən şiddətli döyüşlər isə 2016-cı il aprelin ilk günündən - 1-dən 2-nə keçən gecə başladı. Dörd gün davam etdi. Cəbhəboyu Azərbaycanın mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Tarixə Aprel döyüşləri kimi yazılan dördgünlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini düşmənin işğalından azad etdilər, Füzuli rayonu istiqamətində Lələtəpə yüksəkliyində nəzarəti ələ keçirdilər. Döyüşlər nəticəsində Ağdərə-Madagiz istiqamətində yolların Azərbaycan Silahlı Qüvvələrinin nəzarətində saxlanılması da reallaşdı.

Birinci Qarabağ müharibəsindən sonra ilk dəfə qəlbimizə sevinc işığı 2016-cı ilin aprelində düşdü. Ancaq 2020-ci ildə qazandığımız möhtəşəm Zəfərin sevinci, qüruru bambaşqa oldu. Həmin il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başlayan və 44 gün çəkən İkinci Qarabağ müharibəsində sanki bütün Azərbaycan xalqı iştirak edirdi. Qəhrəman oğullar Qarabağda, Şərqi Zəngəzurda döyüş meydanlarında işğalçı ölkənin silahlı qüvvələrini böyük şücaətlə məhv edirdilər. Cəbhədə döyüşməyənlərin isə hər biri ürəyi ilə, ruhu ilə oradaydı...

Xalq ümidlə, inamla, həyəcanla Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, dövlətimizin başçısı İlham Əliyevin müraciətini gözləyirdi. 30 il arzusunda olduğumuz xəbərləri eşidirdik. Ali Baş Komandan, Prezident İlham Əliyev yeni qələbə xəbərləri ilə bizi sevindirirdi. Ümidlərimiz doğrulurdu, xəyallarımız gerçəkləşirdi... İşğal altında qalan ərazilərimizi qəhrəman Ordumuz azadlığına qovuşdururdu. Qürurlanırdıq...

2020-ci il böyük Zəfərimizlə tariximizə yazıldı. Bu, əslində, iki əsrin qalibiyyəti idi. Biz iki yüz ildə ilk dəfə işğal edilən ərazilərimizi geri almağa müvəffəq olduq.

2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatları nəticəsində isə Qarabağda qalmış Ermənistan silahlı qüvvələrinin törtöküntüləri və separatçılar təslim bayraqlarını qaldırmalı oldular. Lokal xarakterli antiterror əməliyyatlarında hərbçilərin peşəkarlığı, cəsurluğu, rəşadəti Azərbaycan Ordusunun qüdrətini, yenilməzliyini bir daha göstərdi. Və Qarabağın digər əraziləri kimi, Xankəndidə, Xocalıda da Dövlət bayrağımız dalğalandı.

Bu da növbəti uğurumuz... Aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasındakı sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası Baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü keçirildi. Komissiyalar görüş zamanı bir sıra məsələlər üzrə razılığa gəldilər. Onlardan biri də Qazax rayonunun işğalda olan kəndlərindən 4-nün geri qaytarılması oldu.

Azərbaycan dövlətinin məqsədyönlü siyasəti nəticəsində Ermənistanın işğalında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin Azərbaycana qaytarılması ilə bağlı razılaşma ədalətin, haqqın növbəti təntənəsidir. Bu zəfər ürəyi Azərbaycan eşqi ilə döyünən hər kəsin zəfəridir.

Çox keçməyəcək ki, Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin sakinlərinin də gözləri yollardan yığışacaq. Həmin kəndlərimiz də öz doğma sakinlərinə qovuşacaq. Azərbaycanımız bütövləşdikcə, tamlaşdıqca daha da güclənəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Əbədiyyətə qovuşanlar

## "Vətən üçün qəhrəman oğul böyütmüşəm"

**Günorta vaxtıdır. Seyrək buludların arasından boylanan aprel günəşi ilıq şuaları ilə Yer üzünü isidir. Hava olduqca xoşdur. Belə günəşli bir gündə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş İbrahimli Cavidan Nizami oğlunun əvvəllər yaşadığı ünvanını axtarırdıq.**



Şəhidin anası ilə danışdıq. Gülnaz xanım dedi ki, evimizə giriş həyətdəki "Xatirə bulağı"nın yanındandır. Bir az irəlidə hündür ağacın altında "Xatirə bulağı"nı gördük. Bulağın yanına çatmağa az qalmış binadan bir oğlanın qarşımıza çıxdığını gördük. Tanışlıq verərək şəhidin böyük qardaşı Kənan olduğunu söyləyəndən sonra "xoş gəlmisiniz" deyib qabağa düşdü.

### "Cavidanın dünyaya gəlişi ailəmizin sevincini daha da artırmışdı"

Şəhidin mənzili birinci mərtəbədə idi. Gülnaz xanım bizə oturmağa yer göstərdi. Diqqətimizi ilk olaraq Cavidanın xatirəsinə düzəldilmiş guşə cəlb etdi. Guşəyə şəhidin müxtəlif illərdə çəkdirdiyi şəkilləri, sənədləri düzülmüşdü. Gülnaz xanım dedi ki, o, evimizin sonbeşiyi idi. Dünyaya gəlişi ailəmizin sevincini daha da artırmışdı. Bir-birinə bənzəməyən günlər sanki onu tez böyütdü. Əgər döyüşlərdə şəhid olmasaydı, indi ömrünün 25-ci ilini yaşayacaqdı...

Ananı qəhər boğduğuna görə gözləri yaşardı, danışa bilmədi. Cavidanın otaqdakı guşəsinə boylanıb yaşadığı qısa, lakin şərəfli ömür yolu ilə tanış olduq. Öyrəndik ki, o, 24 mart 2000-ci ildə Bakı şəhəri Badamdar qəsəbəsində anadan olub. 236 nömrəli tam orta məktəbdə təhsil alıb. 2018-2019-cu illərdə Azərbaycan Ordusu sıralarında Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirib. Xidmət müddətində silahlarla bərabər, az-çox tibbin də sirlərinə yiyələnib. Erməni işğalçılarının təxribatı nəticəsində 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Cavidan İbrahimli könüllü olaraq döyüşlərə yollanıb. O, Cəbrayılın, Füzulinin, Xocavəndin və Qubadlının azadlığı uğrunda gedən əks-hücum əməliyyatlarında iştirak edib. Döyüşlərdə cəsarətlə vuruşub, böyük hünər göstərib. C.İbrahimli oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda gedən əməliyyatlarda üzərinə düşən döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Oktyabrın 24-də qoynunda dünyaya göz açdığı Badamdar qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə İbrahimli Cavidan Nizami oğlu döyüşlərdə göstərdiyi igidliyə görə ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

### "Heç 20 yaşı da tamam olmamışdı"

Gülnaz xanım göz yaşlarını silib yenə də Cavidanlı günlərinə qayıtdı: "Hər gün zəng vurub iştirak etdiyi döyüşlərdən danışırdı. Sevinə-sevinə deyirdi ki, bu gedişlə qısa müddət ərzində Ağdamı da erməni işğalçılarından azad edəcəyik. Günlərin birində mən sizə Şuşadan zəng vuracam. Ordumuz addım-addım kənd və qəsəbələri azad edib Qarabağa doğru irəliləyir. Amma oktyabrın 21-dən sonra Cavidandan zəng gəlmədi. Bundan çox nigaran qaldıq. Sonra qapımızı acı xəbər döydü. Komandiri zəng vurub Cavidanın şəhid olduğunu bildirdi. Bu xəbəri eşidəndə dünya başıma fırlandı. Axı onun heç 20 yaşı da tamam olmamışdı. Övlad itirmək ağır dərddir. Təskinliyi yalnız onda tapıram ki, Cavidan yurdumuzun azadlığı uğrunda şəhid olub. Onun qırxı çıxar-çıxmaz həyat yoldaşım Nizami oğul itkisinə dözə bilməyib dünyasını dəyişdi. Ölümü ilə dərdimizin üstünə dərd gətirdi".

### "Övladımın adını daşıyan küçə ilə gedəndə qürur hissləri keçirirəm"

Gülnaz xanım dedi ki, şəhid ailəsi kimi ona dövlət tərəfindən ikiotaqlı mənzil verilib. Şəhid anası bu qayğı və diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığını bildirdi. Şəhid anasından onu da öyrəndik ki, Cavidanın adı əbədiləşdirilib. Yaşadıqları küçə indi övladının adını daşıyır. Oğlunun dostları onun adına həyətdə "Xatirə bulağı" tikiblər. Hər gün binada yaşayanlar qəhrəmanın adını daşıyan bulaqdan su içib, xatirəsini hörmətlə yad edirlər. Şəhid anası dedi ki, övladımın adını daşıyan küçə ilə addımlayanda qürur hissləri keçirirəm.

Şəhid anasının övladı ilə bağlı söz-söhbəti qurtarmır. Gülnaz xanımın övlad sevgisi bitib-tükənmir. Tükənməyən bu sevgi onu deyir ki, Cavidan yaddaşlarda igid bir əsgər, cəsur bir döyüşçü kimi əbədi olaraq qalacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Şəhidlər ölməz, vətən bölünməz

## "Çəkdiyim əziyyət halalın olsun, oğlum!"

**"Gələcək nəsillər bunu unutmamalıdırlar, çünki biz müqəddəs Vətən uğrunda övlad qurban verdik, canımızın bir parçasını itirdik. Onları çətinliklərlə, min bir əzaba qatlaşaraq böyütmüşdük. Belə şeyləri heç vaxt dilimə gətirməmişəm - valideynlik borcumdur. İndi isə insanların, xalqın qarşısında başıuca, alnıaçıq, üzüağ dayandığıma görə deyirəm: sənə çəkdiyim əziyyət halalın olsun, oğlum!" Bu sözləri Aprel döyüşlərinin qəhrəmanı, Milli Ordumuzun şəhidlik məqamına yüksəlmiş əsgərinin Sumqayıt şəhərində keçirilən qırx mərasimində anası Ceyran Axundova söyləyib.**

Əbdülməcid Axundov. Bu kimlik Aprel savaşına qədər ictimaiyyətə heç nə demirdi, yalnız öz ailəsinə və dost-tanışlarına məlum idi. İndi ümumxalq məhəbbəti qazanıb, minlərlə insanın sevimlisinə çevrilib, ən başlıcası isə ilahi təqdirə layiq görülüb. Hər gün Sumqayıtın 16 saylı məktəbində əyləşdiyi partanın, Şəhidlər xiyabanında uyuduğu məzarın üstünə təzə-tər gül dəstələri düzülür, sevgi, təşəkkür, pərəstiş məktubları qoyulur, söhbətlərdə, düşüncələrdə, xatirələrdə anılır.

Şəhidimizin qısa, lakin heyrətamiz hadisələrlə dolu həyat kitabını yenidən vərəqləmək üçün anası Ceyran Axundova ilə Xırdalandakı iş yerində (o, Sumqayıt Regional Mədəniyyət İdarəsinin Abşeron rayonu üzrə nümayəndəsidir) görüşüb söhbətləşirik. "Atası da, mən də maaşa baxan adamlarıq, ürəyindən bir şey keçəndə evdə ona yetəcək pulun olmasını dəqiqləşdirməmiş istəyini dilə gətirməzdi... Cəsurluğuna, qorxmazlığına baxmayaraq, kimsəni incitməzdi, yalnız gücsüzü, köməksizi qorumaq məqsədilə savaşardı".

Doğmalarının söhbətlərindən aydınlaşır ki, mərdlik, cəsurluq, kişilik, dürüstlük vətənpərvərlik bu gəncin xarakterindəki ən ümdə cizgilər idi. Ramil Səfərova, digər ünlü hərbçilərə və döyüşçülərə, Qarabağ qazilərinə xüsusi dəyər verər, Mübariz İbrahimovun, Fərid Əhmədovun, vətənin azadlığı naminə ölümə atılan şəhidlərimizin xatirəsini əziz tutardı.

Aprelin 5-də atəşkəsin bərpasına çağırış zəminində Qırmızı Xaç Komitəsi bildirir ki, neytral zonadakı sağ qalanların, yaralıların və həlak olanların dəyişdirilməsinə start verilib. Gözü yoldan yığılmayanların ürəyində güclü bir ümid qığılcımı parlayır: deməli, düşmən arxasında hələ də ölümə yaxa tanıtmayan igidlərimiz var, mühasirəni yarmaq, orduya birləşmək üçün fürsət gözləyirlər. Lakin heyhat! Həmin vaxt onlarca valideyn, övlad, qardaş-bacı, ömür-gün yoldaşı, dost-tanışdan ötrü həyat zərurətli ümid



alışdı, titrədi, öləzidi və söndü. Çünki növbəti bəyanatların mətnində "sağ qalan", yaxud "yaralı" ifadəsi yox idi, yalnız meyitlərin qaytarılmasından söhbət gedirdi...

Əvvəl qardaşı yollanıb Tərtərə, sonra atası, bütün hərbi hissələri, xəstəxanaları, morqları ələk-vələk eləyiblər, gördüm deyən olmayıb, nəhayət, Bərdədən əlaqə saxlayıblar ki, "burdadır, təcili gəlin". Pişvazına çıxıblar: elə özünün daim arzuladığı görkəmdə, məqamda, ruhi yüksəlişdə, meracda imiş, Azərbaycan bayrağına bürünmüş tabutun içərisində uyuyurmuş... Bəli, doğmaları Əbdülməcidə yetişəndə, o, artıq öz əzizinə - ilahi hədəfinə, müqəddəs sevgisinə qovuşmuşdu.

Əbdülməcid Nadirşah oğlu Axundov bu dünyada çox az, cəmi 23 il ömür sürdü. Tərcümeyi-halı da elə böyük deyil: 15 oktyabr 1993-cü ildə Sumqayıtda doğulub. 1999-2010-cu illərdə şəhər 16 saylı orta məktəbində təhsil alıb, 2011-2015-ci illərdə Azərbaycan Texniki Universitetində elektrik mühəndisi ixtisasına yiyələnib. Ali məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb, Azərbaycan Silahlı Qüvvələri sıralarında çavuş rütbəsində, manqa komandiri vəzifəsində hərbi xidmət keçib.

Oxşar cümlələrə hər kəsin məlumat bazasında rast gəlinə bilər, lakin bundan sonra qeyd olunanlar artıq bioqrafik bilgiləri kölgədə qoyub əbədiyyət dastanına çevrilir və hər kəsə də nəsib deyil: erməni silahlı birləşmələrinin təxribat cəhdlərinin qarşısının alınmasında şəxsi igidlik və rəşadət göstərərək qəhrəmancasına şəhid olub.

Onun fədakarlığı dövlət və xalq tərəfindən dəyərləndirildi; Ə.Axundov ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltiflənib. Təhsil aldığı orta məktəbdə xatirəsini əbədiləşdirmək üçün bilik yarışları keçirilir. Gənc Mühəndislər Cəmiyyəti İctimai Birliyinin qərarı ilə Azərbaycan Texniki Universitetinin məzunu kimi adına mükafat təsis olunub. Onun qəhrəmanlığı məzarı üzərinə qoyulmuş məktubda yazılan bir cümlə ilə dəyərləndirilə bilər: "Əvvəl bir ailənin oğlu idin, indi bütün Azərbaycanın övladısan!"

*Qurban MƏMMƏDOV*

## "Xəzər səması-2024" birgə taktiki təlimi keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi bu ilin hazırlıq planına əsasən, Hərbi Dəniz və Hava qüvvələri ilə birgə "Xəzər səması-2024" hava hücumundan müdafiənin təşkili mövzusunda taktiki təlimi keçirilib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, taktiki təlimə ümumilikdə 300 nəfərədək şəxsi heyət, döyüş, idarəetmə və gözətçi gəmiləri, katerlər, döyüş vertolyotları və pilotsuz uçuş aparatları cəlb edilib.

Plana uyğun olaraq həyəcan siqnalı ilə baza məntəqəsindən ayrılan gəmilər Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda Hərbi Hava Qüvvələri aviasiya vasitələri ilə birgə dəniz enerji infrastrukturunun hava hücumundan müdafiəsinin təşkili, şərti düşmən hədəflərinin məhv edilməsi, eləcə də digər döyüş tapşırıqlarının icrası üzrə praktiki fəaliyyətləri yerinə yetiriblər. Bundan başqa, təlimdə gəmi taktiki qruplarının rayonda lövbərə dayanması və oradan çıxması, hava hücumundan və sualtı diversiya əleyhinə müdafiənin təşkili üzrə fəaliyyətlər də müvəffəqiyyətlə icra olunub.

## Hərbi lisey 53 illik yubileyini qeyd edib

**Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaranmasının 53-cü ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.**

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Cəmşid Naxçıvanskinin hərbi liseydə ucaldılan büstləri ziyarət olunub. Ulu Öndərin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla anılıb. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.

Sonra hərbi liseyin Döyüş bayrağı təntənəli surətdə meydana gətirilib. Mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, hərbi liseyin şəxsi heyəti, hərbi qulluqçular, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti, təhsil ocağını müxtəlif illərdə bitirmiş məzunlar, eləcə də digər qonaqlar iştirak ediblər.



Mərasimdə çıxış edənlər ötən müddətdə respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanmasında hərbi liseyin göstərdiyi xidmətlərdən, hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının artmasında əhəmiyyətli rol oynamasından danışıblar.




# "WhatsApp"dan yenilik

**"WhatsApp" tərtibatçıları sosial şəbəkədə yeni funksiyanın istifadəyə verildiyini bildiriblər. Söhbət çatlar üçün nəzərdə tutulmuş filtrlərdən gedir.**

Onlar lazımi mesajların sürətli tapılmasına istiqamətlənib. Beləliklə, platformadakı çatlar üçün 3 filtr əlavə edilib. "All" adlı birinci filtr bütün çatları əks etdirir. "Unread" filtri istifadəçi tərəfindən oxunmamış çatları əks etdirir. Üçüncü filtr isə "Groups" adlanır və o, qrup çatlarını əks etdirir. Yeni funksiya "WhatsApp" istifadəçiləri arasında tədricən istifadəyə verilir.

Sosial platforma daha bir funksiya tətbiq edib. Bu yenilik isə "WhatsApp Web"lə bağlıdır. Belə ki, "WhatsApp Web"in beta versiyası yeni interfeys əldə edib. Təqdim edilən fotodan da görmək olar ki, patforma tərtibatçıları bu dəfə diqqətlərini yan panelə ayırıblar. Belə ki, yeni interfeys çərçivəsində messencerin bütün funksionallığı yan paneldə yığılıb. Bu isə oz növbəsində sosial şəbəkənin imkanları arasında sürətli və rahat keçidi təmin edir. "WhatsApp Web"in yeni interfeysinin bütün istifadəçilər üçün nə zaman istifadəyə veriləcəyi isə hələlik bilinmir.



# Elektromobillər üçün yeni batareya

**Çinin elektromobil istehsalçısı olan "BYD" şirkətinin batareyaları "Tesla", "Ford", "Kia", "Hyundai", "Toyota" və digər məşhur avtomobil şirkətlərinin elektromobillərində istifadə edilir. Belə ki, "BYD"nin elektromobil batareyalarının texniki göstəriciləri bazarda ən yaxşıları sırasındadır.**



Şirkət batareyalarını daha da təkmilləşdirəcək. Məlumata əsasən, BYD-nin "Blade" adlı yeni batareya seriyası daha kompakt ölçülü və yüngül olacaq. Yeni məhsul hazırda aktual olan batareya seriyasının sahib olduğu həcmi özündə birləşdirəcək. Bu isə o deməkdir ki, gələcək elektromobillər daha uzun məsafə qət edəcəklər.

"BYD"nin mövcud batareyalarında enerji sıxlığı 150 kilovat-saat təşkil edir. Yeni batareyalarda isə enerji sıxlığı 190 kilovat-saat təşkil edə bilər. Bunun sayəsində elektromobillərin qət etdikləri məsafə göstəricisi 1000 kilometrə yüksələcək.

Yeni məhsul avqust ayında təqdim ediləcək.

# "Snake" geri qayıdır

**"Nokia" şirkəti yeni smartfon təqdim edib. Sosial şəbəkələri və proqramları olmayan cihazda ancaq bir zamanlar məşhur olan "Snake" ("İlan") oyunu var.**



Şirkət bildirir ki, bu addım istifadəçiləri smart telefonların mövcud olmadığı dövrə qaytarmaq üçün hazırlanıb. Əslində, bu, rəqəmsal detoks üçün nəzərdə tutulmuş bir telefondur.

Qatlanan yeni smartfonun iki - daxili və xarici ekranı, 1450 mAh batareya, radio və 4G dəstəyi var.

"Nokia" bu telefonların satışa çıxarılmayacağını bildirib. Onlar sadəcə sosial şəbəkələrdə müxtəlif tədbirlərdə mükafat olaraq veriləcək. Yeni cihazdan cəmi 5000 ədəd istehsal olunacaq.

# Elektrikli velosiped

**"Kalaşnikov" konserni "İzh-49" motosikleti əsasında məhdud sayda elektrik velosiped istehsal edib. Retro üslubda olan velosiped təkoturacaqlıdır.**

Nəqliyyat vasitəsi şəhər mühitində səyahət üçün uyğundur. Elektrik velosipedin yeni versiyası 130 kiloqram çəkiyə malikdir. O, hava ilə soyudulan fırçasız "DC" mühərriki ilə təchiz edilib və sürəti saatda 95 kilometrə çata bilir.



# Bəzi proqramlar "App Store"dan çıxarılıb

**"Apple" Çində istifadə olunan "App Store"dan "WhatsApp" və "Threads" proqramlarını çıxarıb. Şirkətin bəyanatında bildirilir ki, ölkənin Kiberməkan İdarəsi milli təhlükəsizlik baxımından bu proqramların Çin onlayn mağazasından silinməsi göstərişini verib.**

"Apple" bununla razılaşmasa belə onlara əməl etməyə borclu olduğunu bildirib.




Proqramın silinməsi Çində 2023-cü ildə qəbul edilmiş və bu ölkədə fəaliyyət göstərən tətbiqlərin tənzimləyici orqanında qeydiyyatdan keçməsini tələb edən qanunla bağlı ola bilər. Keçən ilin avqustunda Çin hakimiyyəti tərtibatçıları 2024-cü ilin mart ayının sonuna qədər bu qaydaya əməl etməyə çağırıb, əks halda proqramların ölkədə fəaliyyətini dayandıracağını bildirib.

# Yeni süni zəka modeli

**"Microsoft" şirkəti yeni süni zəka modelini təqdim edib. "VASA-1" adlı süni zəka modeli foto əsasında keyfiyyətli video tərtib edə və audio fayl vasitəsilə realistik mimikanı sərgiləməklə hər hansısa şəxsin fotosunu canlandıra bilər.**




"VASA-1" təkcə dodaq deyil, həmçinin baş hərəkətləri ilə mətni sinxronlaşdıra bilir. Bunun üçün istifadəçi hətta şəxsin gözlərinin hansı istiqamətə yönələcəyini və onun hansı emosional vəziyyətdə olacağını seçə bilər.

Yeni süni zəka modeli saniyədə 40 kadr sürətlə 512x512 piksel keyfiyyətli videolar tərtib edə bilir. Bu cür göstəriciyə "NVIDIA GeForce RTX 4090" videokartına sahib kompüterdə nail olmaq mümkün olub. Şirkət "VASA-1"in onlayn demo versiyasını təqdim etməyi hələ planlaşdırmır.

# "YouTube"un bəyənilməyən dizaynı

**"YouTube"un yeni dizaynının testinə start verilib. Yenilik çərçivəsində videonun təsviri ilə şərhlər bölməsi saytın sağ hissəsinə keçirilib. Videonun təsvir hissəsinin əvvəlki yerində isə saytdakı digər videolar üzrə məsləhət siyahısı qeyd edilib.**

"YouTube"un hazırda aktual olan dizaynında məsləhət xarakterli videolar saytın sağ hissəsində, izlənən videonun adı, təsviri və şərhləri isə alt hissədə yerləşir. Yeni dizayn istifadəçilərin ürəyincə olmayıb. Onların fikrincə, platforma 18+ məzmunlu saytlara bənzəyir. "YouTube"dan bildirilib ki, bu, sadəcə test mərhələsidir. Buna görə də yekunda saytın məhz bu dizaynı əldə edəcəyi dəqiq deyil.

# Beyni 2000 dəfə üstələyən superkompüter

**Yüksək hesablama gücünə sahib insan beyni saniyədə 100 milyard əməliyyat yerinə yetirə bilər. Avstraliya Beynəlxalq Neyromorf Sistemləri Mərkəzi tərəfindən yaradılmış "Deep South" superkompüteri artıq bu ay ərzində işə salına bilər.**

Yeni cihaz saniyədə 228 trilyon əməliyyatın yerinə yetirilməsi sürətinə sahibdir. Bu isə o deməkdir ki, "Deep South" insan beynini 2000 dəfə üstələyir.




Sözügedən superkompüter təkcə insan beynini deyil, hətta bütün insan bədənini imitasiya edə bilir. Ənənəvi kompüterlərdən fərqli olaraq, "Deep South" özündə məlumatların saxlanması imkanı ilə iş prosesini birləşdirir. Bununla da o, insan beyni effektivliyini əks etdirir. "Deep South"un yeganə mənfi tərəfi böyük həcmdə enerji tələb etməsindədir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Baş Prokurorluq tərəfindən Astara rayonunda təmizlik aksiyası təşkil olunub



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı əsasında Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar keçirilən kompleks tədbirlərin davamı olaraq aprelin 20-də Baş Prokurorluğun təşkilatçılığı ilə Astara rayonunda, Xəzər dənizinin sahilində təmizlik aksiyası keçirilib. Keçirilən aksiyada Baş Prokurorluğun, eləcə də Astara, Lənkəran, Masallı, Lerik və Yardımlı rayon prokurorluqlarının əməkdaşları, rayon ictimaiyyəti, Astara Pedaqoji Kolleci və Astara Rayon Gənclər İdarəsinin könüllüləri də daxil olmaqla ümumilikdə 100-dən çox şəxs iştirak edib. "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" şüarı altında təşkil edilən aksiyanın əsas məqsədi ətraf mühitin sağlamlaşdırılması, dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dənizətrafı mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir. Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları tərəfindən 4 hektara yaxın sahil zolağı plastik və digər məişət tullantılarından təmizlənib, toplanmış tullantılar aidiyyəti üzrə təhvil verilib.

# Paytaxtımızda növbəti ümumşəhər iməciliyi keçirilib

**Yaz mövsümü ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) tərəfindən aprelin 20-də paytaxtda növbəti ümumşəhər iməciliyi və ağacəkmə aksiyası keçirilib.**





Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, BŞİH-in kommunal təsərrüfat xidmətlərinin texnikası səhər saatlarından əsas küçə və prospektlərin bitki və canlılara ziyansız yuyucu maddələrlə yuyulmasını aparıb, xidmətin əməkdaşları tərəfindən prospekt və küçələrin, səki kənarlarının, bordürlərin və buradakı işıq dirəklərinin, yol kənarındakı məhəccərlərin, park və istirahət yerlərində oturacaqların yuyulması həyata keçirilib, həyət və yaşayış məhəllələrində təmizlik işləri görülüb.

BŞİH-in çağırışına qoşulan ictimai-iaşə, ticarət və digər obyektlərin əməkdaşları da iməciliyə yaxından qoşularaq öz obyektlərinin vitrinlərini təmizləyib, ətrafında səliqə-sahman yaradıblar. Eyni zamanda müəssisə, idarə və təşkilatların kollektivləri, şəhər sakinləri də iməcilikdə fəal şəkildə iştirak ediblər.

Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyi əməkdaşları tərəfindən əsas magistral yol və prospektlərin kənarlarındakı ağacların üzərinə toplanan toz və torpaq yuyulub, onların dibi yumşaldılıb, mövsümlə əlaqədar ağaclara və yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib, təbii gübrələr verilib. Eyni zamanda şəhər ərazisində Abşeron iqliminə uyğun yeni ağaclar, kollar, güllər əkilir, müxtəlif rəngli güllərdən kompozisiyalar yaradılır, yaşıllıq zolaqları və parklarda qazon örtüyünün yenilənməsi aparılır.

Həmçinin Prezident İlham Əliyevin 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamının icrası ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı əsasında paytaxtın Qaradağ rayonunda növbəti ağacəkmə aksiyası keçirilib. Aksiyada yerli iqlim şəraitinə uyğun olaraq seçilmiş 400 yeni ağac əkilib. Ağacəkmə aksiyaları paytaxtın digər rayonlarında da keçirilib.

Paytaxtın sanitar təmizliyinin lazımi səviyyədə saxlanılması və yaşıllıqların genişləndirilməsi üçün tələb olunan bütün tədbirlər davam etdiriləcək.


**«AZƏRBAYCAN»**
**qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı Mircavan Kazımova atası

**RZA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4250
Sifariş 821

Qiyməti 60 qəpik